**Məhəmməd Əmin Rəsulzadə**

# PANTURANİZM.
# QAFQAZ SORUNU

**Bakı-Təknur-2012**

Rus dilindən Türk dilinə çevirən **Yadigar Türkel**
fəlsəfə elmləri doktoru

**Məhəmməd Əmin Rəsulzadə: PANTURANİZM. QAFQAZ SORUNU. Bakı – «Təknur» – 2012. 68 s.**

**İSBN: 978-9952-445-02-3**

**© Məhəmməd Əmin Rəsulzadə**

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

*(31 yanvar 1884 - 6 mart 1955)*



Məhəmməd Əmin Rəsulzadə 31 yanvar 1884-cü ildə Bakıda ruhani ailəsində doğulub. Atası Axund Hacı Molla Ələkbər Rəsulzadə, anası Zal qızı Zinyətdir.

İlk oxuma, eləcə də ulusal eyitimini ailəsində alan Məhəmməd Əmin Bakı Texniki okuluna girsə də çağın siyasi olaylarına qatıldığından oxumağı buraxıb basına atılmış, 1903-cü ildə Tiflisdə çıxan «Şərqi-Rus» qəzetində ilk yazısını yayımlamışdır.

1903-cü ildən çeşidli sosial-siyasi dərnəklərdə çalışan Məhəmməd Əmin bəy qurduğu gizli gənclik qurumu ilə çarizmə qarşı çıxmış, izləndiyindən 1908-ci ildə İrana [Qacarlar dövlətinə] getmişdir. İranda Anayasa axınına qatılıb, «İrane-nov» (Yeni İran) adlı gündəlik qəzet çıxaran Məhəmməd Əmin bəy rus elçisinin istəyilə 1911-ci ildə İrandan çıxarılmışdır. İstanbula gələn Məhəmməd Əmin bəy orada «Türk ocaqları»nın çalışmalarına qatılmış, «Türk yurdu» dərgisinə yazılar yazmışdır.

1913-cü ildə Romanovların 300 illiyilə bağlı bağışlanandan sonra Bakıya dönən Məhəmməd Əmin Rəsulzadə çeşidli kültür, siyasət qurumlarında çalışmış, 1915-1917-ci illərdə «Açıq söz» adlı gündəlik qəzet buraxmışdır.

Məhəmməd Əmin Rəsulzadə 1917-ci ildə ««Türk Fede-

ralist Müsavat Xalq Partiyası»nın başçısı kimi Bakıda toplanan Qafqaz Müsəlmanları Qurultayında Rusiyanın yerli yönətimlərə bölünməsinə, Güney Qafqaz Seymində isə Müsəlman Fraksiyasının başçısıtək Qafqazın Rusiyadan ayrılmasına, sonra da Azərbaycan Cümhuriyyətinin qurulmasına çalışmışdır.

1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin yaradıldığı bildirilmiş, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadə qabaqcadan danışıldığı kimi, iyunun 4-də Cümhuriyyətin Dış İşləri bakanı Məhəmməd Həsən Hacınskilə birlikdə Batum Konfransında Osmanlı dövlətilə anlaşaraq bu dövlətdən ordu yardımı istəmişdir.

Azərbaycan Cümhuriyyətinin 23 aylıq dönəmində ulus üçün çox böyük işlər görülmüşdür.

1920-ci il aprelin 27-də rus-sovet-mason gücləri Bakını tutub Azərbaycan Cümhuriyyətini devirmişlər. Bundan sonra tutulub Moskvaya aparılan Məhəmməd Əmin Rəsulzadə Finlandiyaya qaçmış, oradan İstanbula gəlmiş «Azərbaycan Cümhuriyyəti. Keyfiyəti, təşəkkülü və indiki vəziyəti» adlı kitabını yayımlamışdır.

1923-cü ildən bütün türklər üçün yayımladığı «Yeni Qafqaz»dan (1923-1928) sonra «Azəri türk» (1928-1929), «Odlu yurd» (1929-1931) dərgilərini çap etdirmişdir.

Sovet ağalığının Türkiyə Cümhuriyyətinə basqısı üzündən 1931-ci ildə arxadaşları ilə birlikdə İstanbuldan Avropaya gedən Məhəmməd Əmin Rəsulzadə 1932-ci ildən Varşavada yaşamışdır.

1939-cu ildə alman faşistləri Polşanı tutandan sonra Rumıniyanın baş kəndi Buxarestə keçən Məhəmməd Əmin bəy 1942-ci ildə Almaniyanın başçıları ilə Azərbaycan

Cümhuriyyətinin gələcəyini danışmağa çalışmış, istədiyi alınmadığından yenidən Buxarestə dönmüşdür.

1944-cü ildə Sovet ordusunun Buxarestə yaxınlaşmasından sonra Almaniyaya gedən Məhəmməd Əmin bəy 1945-ci il aprelin 24-də amerikalıların tutduğu bölgəyə keçmişdir.

1947-ci ilin sentyabrında Türkiyəyə gələn Məhəmməd Əmin Rəsulzadə ömrünün sonuna kimi Ankarada yaşamış, böyük elmi, siyasi-ideoloji işlər görmüşdür.

1952-ci ildə Avropaya gedən Məhəmməd Əmin bəy orada «Qafqaz Bağımsızlıq Komitəsi»ni qurmuşdur.

Ayrı-ayrı çağlarda Azad Avropa Radiosundan sevgili Azərbaycana səslənən Məhəmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-da Ankarada ölmüşdür.

Məhəmməd Əmin Rəsulzadə «Qaranlıqda işıqlar»- «Nagəhan bəla», «Jamaat idarəsi», «Bizə hankı idarə faydalıdır», «Azərbaycanın təşəkkülündə Müsavat», «Azərbaycan Cümhuriyyəti», «Əsrimizin Səyavuşu», «İstiqlal məfkurəsi və gənclik», «Rusiyada siyasi vəziyət», «İnqilabçı sosializmin iflası və demokratiyanın gələcəyi», «Milliyət və bolşevizm», «Qafqaz türkləri», «İran türkləri», «Azərbaycanın kültür gələnəkləri», «Çağdaş Azərbaycan ədəbiyatı», «Çağdaş Azərbaycan tarixi», «Milli birlik», «Azərbaycan şairi Nizami», «Qafqaz türkləri» kimi çox dəyərli əsərlər yazmışdır.

**YADİGAR TÜRKEL**

# 2012-Cİ İL ÇAPINA ÖN SÖZ

Qafqaz Bağımsızlıq Komitəsi Azərbaycan Cümhuriyyətinin qurucusu, ulusal ideoloq Məhəmməd Əmin Rəsulzadənin «Panturanizmdən. Qafqaz sorunu ilə bağlı» kitabını 1930-cu ildə Parisdə yayımlamışdır. Kitabda Məhəmməd Əmin Rəsulzadənin erməni «yandaş ideoloq»larından Xondkaryana cavab kimi yazdığı «Rusiyanın qulluğunda», Rusiya Keçid Ağalığının başçısı Aleksandr Kerenskiyə yazılmış «Nə peyindir, nə də material» yazıları, eləcə də 1930-cu ilin aprelində Qafqaz, Ukrayna, Türküstanın siyasi sığınmaçıları qarşısında edilmiş «Panturanizm. Qafqaz sorunu» adlı çıxışı toplanmışdır.

Məhəmməd Əmin Rəsulzadə «Panturanizm. Qafqaz sorunu» kitabında türkün içgüdüsü – özünüqoruma instinkti olan, gerçək tarixi Oğuz xanın Gündoğandan Günbatana-dək bütün ölkələri tutub xanlar xanı – dünya xanı olduğu çağdan başlayan türkçülüyün XIX-cu yüzilin sonu, XX yüzilin başındakı yeni dirçəlişindən yaşadıqları çağa kimi gəlişimini ən üst düzəydə araşdıraraq, onun yüksək uyqarlıq dəyərlərindən yaranmış ulusal ideologiya olduğunu göstərmişdir: «Doğudakı ulusal axınlardan biri olan panturanizm Batıdakı, çox ara geriçi olay sayılıb, şovinizm deyilən nasionalizmdən bir az ayrıdır.

Şovinizm saldırıcı axın olub, ulusal oluşmuş hansısa böyük kapitalist dövlətinin ağalığını daha çox gücləndirmək, topraqlarını genişləndirmək istəklərinə dayanır. Avropa nasionalizmi siyasi saldırıcı, sosial tutucu ideologiyadır. Doğudakı ulusalçılıq isə siyasi qurucu, sosial yenilikçi olaydır».

Türklərə yağı kəsilən rus strateqlərilə «yandaş ideoloqlar»ı

isə türkçülük ideologiyasına **pan** damğası vurub çağın siyasi düşüncəsinə panturanizm adı ilə saldırıcı ideologiya kimi yeritməyə çalışırdılar. Məhəmməd Əmin Rəsulzadənin «Panturanizm. Qafqaz sorunu» kitabında onların bu siyasətinin yanlışlığı göstərilmişdir: «Biz gerçəklərə dayanaraq indiki durumunda **türkçülüyün Qafqaza heç bir qorxu törətmədiyini**, tərsinə, rus imperalizminə qarşı yönələn ideya kimi **onunla bir** olduğunu gördük».

Türkçülük çağdaş Azərbaycan Respublikasında azərbaycançılıq ideologiyasının içindədir.

Türkçülüklə yanaşı qafqazçılıq da türk bilginlərinin yaradıb gəlişdirdiyi ideyadır. Məhəmməd Əmin Rəsulzadə Parisdəki çıxışında Qafqaz ellərini Qafqaz Konfederasiyasında birləşdirməklə çar Rusiyasından elliklə qurtulmağa çalışıldığını yetkin siyasətçitək göstərir: «Bu ideya Gürcüstanla Azərbaycanın yuxarıda deyilən ordu-savunma anlaşması ilə bir az gerçəkləşdi. Çıxışımın sürəsi onu bütünlüklə uyğulaya bilməməyimizin çoxlu nədənlərindən danışmağa qoymur. Təkcə bunu deyirik: bu ideyanı gerçəkləşdirməyə qoymayan nədənlərdən biri indi də Xondkaryan ağa ilə **K-$^{0}$**-nun dililə Qafqaz ellərinin birləşməsini pozmağa çalışılan qarayaxma, boşboğazlıq idi».

Qafqazçılıq ideyası ən azı rusların Azərbaycana, Qafqaza quldur basqınlarının başladığı IX yüzildən başlayır. Qaynaqlar Şirvan şahı Ağsartanın gürcülərin də yardımı ilə Azərbaycanın Sarı adasının yaxınlığında rus quldurlarının 72 gəmisini batırdığını bildirir.

Qafqazçılıq ideyası Azərbaycan şairi Nizami Gəncəvinin «İskəndərnamə» poemasında yüksək düzəydədir. **Nizami Gəncəvi böyük türkçü, islamçı, azərbaycançı, qafqazçı ide-**

**oloqdur.**

Məhəmməd Əmin Rəsulzadə 1934-cü il noyabrın 5-də, Parisdə Əlimərdan bəy Topçubaşovun qəbri üstündə danışarkən Azərbaycan ideoloqlarının Qafqaz Konfederasiyası ideyasına necə içdən, dönməz bağlı olduğunu aşağıdakı sözlərlə bildirmişdir: «O, İstanbulda, Mudros anlaşması günlərində, Azərbaycan Elçiliyinin başçılığında ikən, yayımladığı, **özü kiçik, anlamı böyük kitabında** Qafqaz sorunundan danışmış, qafqazlılar üçün konfederasiyadan başqa çıxış yolu olmadığını uzaqgörənliklə göstərmişdir».

«Panturanizm. Qafqaz sorunu» kitabında rusların XIX-cu yüzilin başlarında Qacarlar, eləcə də Osmanlı dövlətlərindən köçürüb Qafqaza gətirdiyi ermənilərin yüz il sonra da Rusiya imperializminin əlaltısı olduğu incəliklə göstərilir: «Qafqaz keçmişdə qonşu ellərin çatışma yeri olmuşdur. Birgəyaşayışın son dönəmində bu bölgənin çəkdikləri də **bir sıra Qafqaz ellərinin separat davranışlarının təkcə onlara yox, bütün uluslara ağrı-acı gətirdiyini** aydın göstərdi».

Qafqaz birliyinə dönük çıxan ermənilər dağılmış Rusiya İmperiyasının hansı biçimdə olur-olsun dirçəldilməsinə çalışırdılar. Onlar Qafqaz Konfederasiyasına dönük çıxmasaydılar, rus-sovet-erməni-mason bolşefaşizmi Qafqazı tutamaz, ellərimiz özgür, demokratik, uyqar çağa qovuşardı.

Bolşevik güclərinə qarşı Gəncə ayaqlanmasının başçılarından biri polkovnik Jahangir Kazım Bəy 1935-ci ildə «Şimali Kafkasiya – Severniy Kafkaz» curnalının 18-ci nömrəsindəki yazısını bu sözlərlə bitirirdi: «Qafqaz Konfederasiyası Anlaşması bağlanıb, işləsəydi, Qafqaza istənilən özgürlüyü gətirərdi». [İz naslediya politiçeskoy emiqrasii Azerbaydcana v Polşe (30-ye qodı XX veka). Bakı, 2011, s.295].

Türkçülük ideologiyası Azərbaycan bilginlərinin gəlişdirməsilə qafqazçılıqla bitkinləşmişdir. Çağdaş Azərbaycan Respublikasının Ağalığı da bacardıqca qafqazçılıq siyasəti yeritməlidir. Bu yol **Məhəmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Həsən bəy Ağayevin, Fətəli Xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Hacı Zeynalabdin Tağıyevin** düzgün, ulusalçı yoludur.

Türk dilini ərəb, fars dillərindən arındırmaq, özgə dillərin pis etkisindən qorumaq istəyilə, eləcə də 1930-cu il Paris çapının adının uzunluğunu, indiki çağa bir az uyğunsuzluğunu gözə alıb, türk dilinə yad **VƏ** bağlayıcısını da ataraq, kitabı «Panturanizm. Qafqaz sorunu» adlandırdıq.

Kitabdakı «Rusiyanın qulluğunda» adlı birinci yazı Məhəmməd Əmin Rəsulzadənin 2009-cu ildə yayımladığımız «Milli birlik» kitabında da verilmişdir. Onu ərəb, eləcə də başqa dildən keçmə sözlərdən arındıraraq, cümhuriyyət, kommunist kimi sözləri də bir y, bir m-lə yazdıq.

**Sayğılı igid yeniyetmə, gələcək politik ulusal ideyalar qaynağı olan bu anıtı yaxşı-yaxşı oxu, ondakı toplumsal-siyasi ideyaları anla, uyğula, türk dilinin gözəlliyini gör, onu sev, dilini arındırıb gözəl dillə danış, yaz!**

Kitabdakı əyri ayrıcda () yazılanlar **Məhəmməd Əmin Rəsulzad**ənin, düz ayrıcdakılar [] **Yadigar Türkel**indir.

Kitabın çapında əməyi olan bütün aydınlara, daha çox da fəlsəfə elmləri doktoru **Mətləb Əbdüləli oğluna**, **Xan Bahadır Törəli**yə **çox sağ ol!** – deyirik.

**YADİGAR TÜRKEL**
fəlsəfə elmləri doktoru

# «QAFQAZ» YAYIM EVİNDƏN

«Qafqaz» Yayım Evi Qafqazın görkəmli siyasətçisi, Azərbaycan Demokratik Respublikasının (1918-1920) öncüllərindən biri Məhəmməd Əmin Rəsulzadənin bir sıra əsərlərini yenidən çap etməyi gərəkli sayır. Qafqaz Bağımsızlıq Komitəsi sizə çatdırdığımız bu kitabı da bütün Qafqaz üçün gərəkli sayıb 1930-cu ildə Parisdə çap etmişdir.

Kitaba «Rusiyanın qulluğunda», «Nə peyindir, nə də material» yazıları, «Panturanizm. Qafqaz sorunu» çıxışı salınmışdır.

Birinci yazı Azərbaycanın siyasi sığınmaçılarını Türkiyəyə qulluqda suçlayanlara, ikincisi Rusiyanın Keçid Ağalığının başçısı A. Kerenskiyə cavab, «Panturanizm. Qafqaz sorunu» isə Qafqaz, Ukrayna, Türküstanın siyasi sığınmaçıları qarşısında edilmiş çıxışdır.

Məhəmməd Əmin Rəsulzadənin Qafqaz ellərinin birləşməsinin gərəkliyi ideyası aktuallığını bu gün də itirməyib, tərsinə, Orta Qafqaz ölkələri dövlət bağımsızlığı qazanandan sonra yeni, çağdaş anlam aldığından, bu əsərlər bu gün də istənilməkdədir.

«Qafqaz» Yayım Evi yenidən çap olunan əsərlərin Azərbaycan Ulusal Axınının keçən yüzilin başlanğıcındakı amacından, Qafqaz ellərinin birləşməsinə olan baxışından daha dolğun bilgilər verəcəyini düşünür.

Kitabın dəyəri bir də oxucunu türk ellərinin fəlsəfi ideya axınları, liderlərinin siyasi proqramları ilə tanışdırmağındadır.

Kitab uzmanlar, eləcə də başqa oxucular üçündür.

**«QAFQAZ» YAYIM EVİ**
[2007-ci il]

# YAYIM EVİNDƏN

Məhəmməd Əmin Rəsulzadə bəy rus basınında «panturanizm»lə bağlı yazılanlara cavab olaraq bir sıra yazılar çap etdirmiş, dinləyicilər qarşısında çıxışlar etmişdir.

Bu yazılarda, çıxışlarda «türk» axını ilə bağlı çoxlu gerçək material olmasından başqa, türklərin ulusal axınlarına qarşı çıxan bütün boşboğazlıqlara, qarayaxmalara ellikłə, eləcə də Azərbaycan Ulusal Özgürlük Axınına qarayaxanlara tutarlı cavab verilmişdir.

Yazarın görkəmli toplumsal-siyasi şəxsiyət, tanınmış publisist, Azərbaycan Özgürlük Axınının ideoloqu olması bu çıxışlara özəl ün, dəyər verir.

Qafqaz Bağımsızlıq Komitəsi neytral adamların biryönlü yayımların bilgilərinin etkisinə düşməyib işi özləri anlamaları üçün sayğılı yazarın bu konudan iki yazısı ilə bir çıxışını rus dilində ayrıca toplu kimi çap etməyi gərəkli saydı.

Bizim toplu baxışlarına dəyər verdiyimiz oxuculara Azərbaycan Ulusal Axınının amacı, istəkləri, onun Qafqaz Konfederasiyası sorununa baxışını çatdıra bilsə, deməli, istəyimizə çatmışıq.

# ÖN SÖZ

Azərbaycanın tanınmış publisisti, böyük, demokratik «Müsavat» partiyasının başçısı Məhəmməd Əmin Rəsulzadənin yazdığı «Panturanizm. Qafqaz sorunu» kitabı müsəlman dünyasının oyanışını izləyənlərdə çox böyük ilgi doğurur.

Biz burada türklərin ideya axınları, onların uyqarlıq, özgürlük savaşı öncüllərinin siyasi proqramları ilə ilk qaynaqdan tanışırıq.

Yazar bu axınları olanüstü aydınlıq, böyük yetənək, biliciliklə açıb onları xristian dünyasının uyğun axınları ilə tutuşduraraq, oxucunu dəyərli, görk olası sonuca – dünya uyqarlığının bütövlüyünə gətirir.

Demə, Qərbin buçağadək heç cür anlamadığı Doğu da onun kimi yollarla gəlişir, o da, gec də olsa, ancaq dönmədən, Batının Avropanın toplumsal-siyasi quruluşlarının ulusal-siyasi düşüncəsini etkiləyərək çatdığı yüksəlişi keçirir, getdiyi yolu addım-addım gedir.

Türkiyənin Avropa sivilizasiyasına dayanaraq yenidən qurulması bir neçə şəxsiyətin dərin köklərə dayanmayan improvizasiyası, şıltaqlığı yox, bütünlüklə doğal olub türk ulusunun qabaqkı yaşamının gərəkən tarixi sononcudur.

Xristian düşüncəsi Türkiyə dövlətinin dini köklərdə, panislamizm özülündə varlığını heç cür anlaya bilmir, onu islam dünyasının dəyərlərindən sayırdı. Ancaq o, bir çağlar papalara boyun əyən Avropanın belə bir dini özüldə yaşadığını unudurdu.

Doğu ilə Batı yeni tarixlərini bir çağda, din ağalığı özülündə başladılar, ancaq bir ayrılıqla: ikinci bu ağalığı birincidən tez aradan qaldırdı.

Pankatolisizm yenidənqurmalar, devrimlərlə içdən, panislamizm isə dışdan, savaşlar, ayaqlanmalar, ulusların metropoliyadan – Türkiyədən yavaş-yavaş qopmaları, sononcunun gerçəkdə ulus-dövlətə çevrilməsilə dağılır. Ancaq bu tarixi gerçəkliyin önündə ideya axınları, düşüncə savaşları, ulusal yüksəlişin ideoloji yollarının axtarılması gəlirdi.

Kitabın yazarı da bizi bu ideya savaşının bütün gedişilə tanışdırıb, tarixin necə yenidən yarandığını, müsəlman, xristian ulusları arasındakı hansı ideya oxşarlığının olduğunu göstərir.

Panturanizm, pantürkizm, türkizm müsəlman ortamına keçirilmiş panalmanizm, panslavizm, nasionalizmdir.

Bu axınları araşdıran yazar bütün «pan»ları atıb, təkcə gerçək, sağlam bir ideya axınını: türkizmi – özülü bir-birilə ancaq uyqar ilişkilərlə bağlı türk dövlətləri olan, tarixin gedişi, xristian uluslarının ulusal yüksəlişinə bütünlüklə uyğun türkizmi saxlayır.

Müsəlman dünyasının bu böyük dirçəlişi, onun dünya sivilizasiyasına qovuşması özlərinə sol deyən rus sığınmaçı basınının bir çoxunun dayanıqlığını pozur. Məhəmməd Əmin Rəsulzadənin kitabı bu böyük uyqarlıq sorununu «dayaqların qurucuları» baxımından yozan çevrələrin saldırılarına cavabdır.

İmperializmin bütün biçimləri tarixi korluq xəstəliyinə tutulmuşdu. Tarix indi də bu yolla, özü də onlara qarşı gedir: olanlar olacaqdır! Köklü demokratiyanın borcu bunu, tarixin gedişini düzgün görmək, onunla uzlaşmaq, onu gərəkən toplumsal ilişkilərə yönəltməyə çalışmaqdır.

Ulusların yaşamı eşitlik, barış, dincliklə qurulmalıdır. Qarşılıqlı çatışma, bir-birini qırmaq, yenmək, zülm yox, qarşılıqlı sayğı, qarşısındakını dəyərləndirmə, könüllü anlaşma, kültür yarışı – budur tarixin buyuruğu!

SSRİ-nin müsəlman ulusları yüzillik yuxudan oyanaraq iti addımlarla bütün dünya axınına can atır, uyqar uluslar ailəsinə qoşulurlar. Dünya demokratiyası, eləcə də qonşu xristian ulusları onları ürəkdən qarşılayıb XOŞ GƏLMİSİNİZ! – deməlidirlər.

**NUH CORDANİYA**

Paris, sentyabr 1930-cu il

# RUSİYANIN QULLUĞUNDA

Bu yazı Kerenskinin «Dni» qəzetinin 59-cu sayında Xondkaryanın çap etdirdiyi «Türkiyənin qulluğunda» adlı yazısına cavab olaraq «Odlu yurd»[2] curnalının 10-cu sayında yayımlanmışdır.

Qafqazlı curnalistlərdən biri rus imperializmini tutan erməni siyasilərinə çox yerində olan ad vermişdir – rus imperializminin könüllüləri! Belələrinə bizcə, eyni haqq, eyni uğurla «Rusiyanın qulları» da demək olar.

Bu qulluğun parlaq örnəyini erməni curnalistlərindən A. Xondkaryan vermişdir. Ukraynalı «Trizub»un incə deyimincə «gerçək rus» olan bu erməni keçmiş Rusiya Keçid Ağalığının başçısı Kerenskinin yayımladığı, həftəlik «Dni» qəzetində «Türkiyənin qulluğunda» adlı bir yazı yazmışdır.

Yazı Rusiyada yaşayan əzilən ellərin elçilərinin Jenevrədə toplanacaq qurultayından üncə verilən bildirişlə bağlı yazılmışdır.

Parisdə yayımlanan «Prometey» curnalında birləşmiş, Rusiyadan qurtulmaq istəyən ulusların bu «separatçı» çalışması ruslardan da çox rus olan xondkaryanların kişiliyinə toxunmuşdur.

Bir baxın! Bu dözüləcək şeydirmi?!...Olurmu, Ukrayna, Qafqaz, Türküstan, Kuban, Krım, Qazan kimi ölkələr çıxıb Rusiyanın əlində qalmaq istəmədiklərini bütün dünyaya bil-

[1]«Odlu Yurd» Məhəmməd Əmin Rəsulzadənin redaktorluğunda İstanbulda yayımlanan, Azərbaycan Ulusal Axınının çıxarlarını qoruyan jurnaldır.

dirsinlər, bağımsızlıq istəsinlər?!...

Bağımsızlıq! Necə qul ruhlu olsalar, içlərindən «uluslar türməsində» qalmağı özlərinə bunca borc bilsələr də, xondkaryanlar bu çağırışa arxadan vurmanın zərərini biləcək gözüaçıqdırlar. Bunu edəməzlər, onda çağın ən uyğun, ən yüksək ideyasına qarşı çıxmış olurlar. Bununla birlikdə, belə bir çıxış özünə nə də olsa, sosialist görüntüsü verən Kerenski qəzetinin sosialist boyasına da uymaz! Sonra bağımsızlığa arxadan saldırmaq Xondkaryanın olduğu ulusal dəstədə elə də xoş görünməz, orada sözdə də olsa, Ermənistanın bağımsızlığından danışılır.

Bax, bu kimi düşüncələr bizdə Xondkaryan bu gedişlə gerçəkdən qaçaraq Rusiyadakı «separatizmin» içdən olmadığını göstərməyə çalışır, düşüncəsini yaradır. Bu istəklə də o, bir çox erməni boşboğazlarının ötədən bəri evirib-çevirməyə alışqan olduqları «panturanizm» konusunu yaxalayıb yaraq arxadaşlarından Zarevand adlı birinin yaxında çap olunacaq «Türkiyə və panturanizm» adlı əsərindən yararlanır.

O, bu əsərdən aldığı bir sıra parçalarla «Prometey»də birləşən türk-tatar separatçılarının istəklərinin bağımsızlıq yox, Rusiyadan ayrılıb Türkiyəyə qovuşmaq olduğunu göstərməyə çalışır.

Bu davasını yeritmək üçün Xondkaryan huyundakı qul ruhu ilə iyrənc bir yol qullanır: demə, qazanlı bir «tatar» curnalistinin «ədəbi duyğularını türkcə ədəbiyat, basın oxumaqla gəlişdirməsi» böyük suç imiş… Elə ha!

Xondkaryanlarca, dünyada yalnız bir ilham qaynağı, yalnız bir duyğu örnəyi vardır: Rusiya!

Demə, «Türkiyədə anayasa bildirişinin bütün türk-tatar ölkələrində sevinclə, istəklə qarşılanması yenə belə bağışlanmayacaq bir suç» imiş!

Beləcə, ilgilənmək üçün rus anayasası, rus nihilizmi, rus anarxizmi, rus komunizmi, rus leninizmi varkən, turk anayasası, türk toplumu, türk ulusalçılığı, kamalizmilə ilgilənmək nəyə gərək?!...

İstanbulda çıxan qəzetləri oxumağı belə Rusiya yurdsevərliyinə dönüklük kimi anlayan bir adamın Rusiya imperializminə qarşı görülən yağıca olayları necə qarşılayacağını gözə almaq çətin deyil!

«Sizmidiniz savaş çağında Rusiya sınırlarını vicdanla qorumayanlar?!... Sizmisiniz rusofilləri Qafqaz birliyi dışında sayanlar?... Onda görürsünüz sonunu! Türklərin ermənilərə etdiyini Rusiyada da sizə edəcəklərini gözləyin!».

Xondkaryan bizi də, qulcasına dediyi bu qorxu qarşısında yolunu çaşacaq adamlardan sayırsa, yanılır.

Biz, bağımsızlıq savaşçıları davamızı yüzilin ən güclü bağımsızlıq, özgürlük çağırışına dayayırıq. Rusiya imperializminin tutma, ələkeçirmə ilə qurulan sınırlarını qorumaq bizim üçün bir ideya ola bilməzdi. Bizi bu ideyaya dönüklükdə suçlayacaq Rusiya imperatorluğu tarixə keçsə də, xondkaryanların bu utanmaz davadan dönməzliyi qul ruhlu olduqlarını göstərən nə parlaq bir tutalqadır!

Bax, «papadan artıq katolik» buna deyərlər!

Bizim öz sınırları içində qalan rus ulusuna qarşı heç bir pisliyimiz yoxdur, tərsinə, ona bu yöndə türlü yaxşılıqlar diləyirik. Ancaq bizi yaşamımızı istədiyimiz biçimdə qurmağa, uyqar yaşamımıza istədiyimiz yönü verməyə qoymamaqla öz boyunbağısına taxaraq çalıb-çapan hər hansı rus imperializminə bütün varlığımızla yağıyıq. Biz, bunu bu imperializmin keçmişinə, indisinə olduğu kimi, gələcəyinə də deməkdən az da olsa çəkinmirik.

Dünyanın toplumsal düşüncəsindən başqa, tarixin də

Avstriya İmperatorluğuna «dönük» çıxıb Rusiyaya sığınan çexoslovakiyalıları suçlamadığı kimi, bizi də suçlamayacağını bilirik!

Panturanizm sorununa gəlincə, olanaqdan yararlanaraq uydurmaçıların aldatmaq istədiyi adamlara biryolluq anladaq: slavyan uluslarında olduğu kimi, türk uluslarında da, birlik ideologiyası doğmuş, bu doğuş bir ara romantik bir dönəm yaşayaraq, ona kimi islam dini düşünüşü alışqanlığında olan siyasi türk-tatar düşüncəsini daha çağdaş, yeniliksevərliklə etkiləmişdir.

Ancaq panslavizmdən daha az gerçək koşulu, gücü olan panturanizm, panslavizmin erdiyi sonuca daha az bir arada gəlmiş, bu gün ən qatı panturançılar belə, təkcə kültür birliyini bacardıqca qorumaqla yetinmişlər.

Ayaz İsaki bəyin türk birliyinə, bu birliyə qarşı Türkiyə Cümhuriyyətinin görəvlərindən danışan yazısından yağıtək yararlanan erməni rusçuları o yazı ilə bağlı yenə Ankarada çıxan «İnqilab» qəzetində yazılan acıqlı yazıları da görməlidir-lər, görmədiklərini də düşünmürük. Ötədən bəri türkçü olaraq yazan yazarların qatılımı ilə çıxsa da, bu qəzetdə alverçi Xondkaryanın dediyi Əli Heydər Əmir bəyə baxmayaraq, Ayaz bəyin Türkiyə Cümhuriyyətindən başqa türk ölkələrinin çıxarlarını qorumaq istəklərinə qarşı güclü baxışlar vardır.

*«Türk ulusalçılığı» da bu baxışlara uyğun yeniləşir. O, irq sistemindən aydın ulusalçılığa keçir. Bu ulusal sistemin başda, tanınmış tarixçi Xəlil bəy Mükrimin olmaqla yolçuları türk anlayışının ulus yox, irqi göstərdiyini deyən «anadoluçular» adlı okul da yaratmışdılar. «Anadoluçular» tək bir türk ulusunun yox, ayrı-ayrı türk uluslarının olduğunu deyirlər.*

*Onlar bu düşüncələrini gəlişdirərək Türkiyəni Anadolu ad-landırmağı da irəli sürdulər. Onlara görə «anadolu» sözü*

*türklərin ulusal kimliyinə «türk»*[1] *sözündən daha uyğundur. Bu yenitürkçü ideologiyanın təkcə elmi olmadığını da deməliyik.* [Yatıq yazı ilə verilən parça 1978-ci ildə Ankarada yayımlanan «Milli təsanüd» kitabında buraxıldığından, 2009-cu ildə Bakıda çap olunmuş «Milli birlik» kitabında da olmamışdır. Onu rus dilindən çevirib yerinə qoyduq. Bu parça professor Vilayət Quliyevin 2011-ci ildə çap etdirdiyi «İz nastediya politiçeskoy emiqrasii Azerbaydcana v Polşe (30-ye qodı XX veka)» toplusunda da vardır].

Tonca belə kəskin olmamaqla yanaşı türk ulusalçılığını irq quraması sistemindən ulus quraması sisteminə keçirən Türkiyə ideoloqlarının uğuru tək quramaçılıq alanında qalmamışdır. Türkiyə Cümhuriyyətinin yeni yaşam dayaqları qurulurkən izlənən politika çağdaş demokratiyası ilə indiki ulus anlayışına bütünlüklə uyğundur. Dünənki panturanizm düşüncəsilə bugunkü türkizm arasında çex ideoloqlarından Palatskinin anladığı panslavizmlə Qavliçikin anladığı panslavizm arasında olduğu kimi böyük bir ayrılıq vardır.

Palatski böyük qardaş Rusiyanın yönətimi altında böyük slavyan imperatorluğu düşünür, çexlərin qurtuluşunu ancaq Rusiyadan gözləyirdi. Qavliçikin bu yüksəkdən uçan düşüncədən ayrı yaratdığı ideologiya slavyanlığa bağlı qalmaqla, bir gerçəkliktək, çexlərin öz gücləri ilə qurtulacaqları ideyasını ortaya qoydu. Bax, bugunkü Çexoslovakiya Respublikası bu gerçəkçi ideologiyanın yaratdığıdır.

Slavyan birliyi düşüncəsi Çexoslovakiya dövlətinin qurulmasını əngəlləmədiyi kimi, türk birliyi də Azərbaycanın Qafqaz Konfederasiyasına girməsinə əngəl olamaz! Palatski kimi

---

[1]M.Ə.Rəsulzadənin «Promethee» jurnalının 18 may 1928-ci il sayındakı «Le jaractere essentlel du nationalisme de la Turqule» yazısına bax.

bir idealist bəlkə də günün birində Çexoslovakiya da olmaqla bütün slavyan dövlətlərinin bir siyasi birlik yaradacaqlarını düşünməkdədir. Ancaq belə bir düşüncənin olması sözsüz, Çexoslovakiya Respublikasının bir gerçək olduğunu danamaz!

Türk birliyi üçün də belədir. Ulus birliyindən dolayı biri-birinə yaxın kültürlü türk ellərindəki ortaq dəyərləri qorumaqla yanaşı, ayrı-ayrı türk elərinin bir dövlət, respublika kimi bağımsızlıq qazanmaq yolundakı axınlarını quşqu altına alanlar ancaq rus imperializminin könüllüləri, ya da qulları ola bilərlər.

Azərbaycanın bağımsızlıq savaşçılarının türk birliyi düşüncəsindən böyük ilham aldığını danmamaqla yanaşı, **siyasətdə gerçəkçilik yanlısı olan Azərbaycan ulusalçıları üçün bu düşüncənin tək kültür alanında olacağı** aydındır. Buna görə də biz bağımsız Qafqaz Konfedarasiyası ideyasını çağın ən aktual tezisi kimi savunuruq.

Qafqaz Konfedarasiyasını yaratmaq üçün çalışan qurumların ancaq Rusiya imperializminə qarşı güclərdən yaranması ilə bağlı düşüncəmizi Türkiyə ilə birləşmək amacı daşıdığını demək üçün ancaq Xondkaryantək Rusiya düşkünü, ya da Türkiyə yağısı olmaq gərəkir!

«Rusofilliyini» – rus imperializminin yandaşı olduğunu deyən Xondkaryan bu «presticin» bağımsızlığa toxunmadığını dava edib, gülünc olmaq qorxusu göstərmədən «rus tutması Polşaya bağımsızlıq verdi», – deyir. Polşa bağımsızlığının rus yağıçılığı üzərində qurulduğunu bilməyən, uluslararası axınlar tarixini az-çox bilən tək bir aydının bulunamayacağını söyləmək gərəkdir!...

Hə, Xondkaryan ağa! Panturanizmin dünənki romantik öncüllərinə Qafqaz Konfederasiyasının türk düşüncəsinə əngəl olmadığını söylədiyiniz kimi, sizə də russevərliyin Qafqaz bağımsızlığına uyğun olmadığını söyləməliyik. Sizin bir «suç»

kimi göstərdiyiniz türk dostluğu isə buna kəsinliklə bənzəməz!

Rus imperializmilə savaşırkən siz də anlayın: qafqazlılar üçün «rusofillik» çox da yaxşı bir dəstək olmasa gərək!

Rusiyanın öz ulusal sınırı içində qalmasını ürəkdən istəyən qonşu dövlətlərə – Türkiyə ilə İrana qafqazlıların göstərəcəyi yaxınlıq duyğusunun anlamı bütünlüklə başqadır, yaxşılığadır.

Xondkaryanların istədiyi kimi, Türkiyə yağıçılığı üzərində qurulan Qafqaz birliyinin bugünkü Sovetlər İttifaqında olan Güney Qafqaz Federasiyasından başqa bir anlamı olamaz! Bu anlayış Xondkaryan düşüncəsindəki bir çox erməni siyasilərini güvənləndirib, onun rus ağalarını şad edərsə də, başqa uluslardan olan qafqazlı siyasi qurumları, elə erməni ulusunun yaşam gəlir-çıxarlarını içdən anlayan ağlı başında olanları sevindirəcəyini düşünmürük.

Dediyimiz kimi, indi ancaq kültür alanına çəkilərək yerini bütünlüklə türk ulusları gerçəyinə verən siyasi panturanizm uydurması üzərində rusçuluq gedişi adına alver yapan «gerçək rus» erməniləri nədənsə «Daşnaksütyun» basınının ortaya atdığı, yeni çıxan «panarianizm»dən heç də danışmırlar. «Daşnaksütyun» partiyasının düşüncələrinin yetkili yayımı olan «Droşak»ın «arian ocağı», «arian özəyi»nin qurulması ilə bağlı bəlli önərisini A. Xondkaryan, sözsüz, görmüşdür. «Droşak»a görə bu «ocaq»la «özək»də: «seçkin farslar, igid kürdlər, qoçaq bəluclar, cəngəlli giləklərlə gözüaçıq ermənilər, əfqanlar, hindlilər – hind-ari soyundan bütün uluslar toplanmalı, birləşməlidirlər!»... Bu birliyin amacı nədir? «Arian uluslarının qaniçən yağıları turanlılara qarşı ariyan uluslarından qurulmuş bir birlik yaratmaq!».

Belə birlik, Yegikyanın, sözsüz, İranı sevdiyi üçün yox, aldadıcı bir gediş qullanmaq üçün bildirdiyi düşüncəsincə: «İranın bu birlikdəki rolu Prussiyanın Almaniya birliyində oy-

nadığı roldur».

**(Bu yöndəki baxışımız yazarlarımızdan M. B. Məmmədzadə bəyin yazdığı «Ermənilər və İran» adlı kitabda bütünlüklə açıqlanıb, yazılmışdır. İstanbul, 1927).**

«Daşnaksütyun»un taktikləri ariyan birliyindən danışarkən bu böyük plana Rusiyanın da qatılmasından heç danışmırlar. Bu dinməzlik – Xondkaryanın bizə uyğuladığı yolla – Ermənistanın Rusiyadan ayrıldıqdan sonra İranla qovuşmasını göstərmirmi?

Göstərməz: **«droşak»çıların da, xondkaryanların da izlədikləri yanlış yolda tutulduqları ortaq bir xəstəlik vardır – türk yağıçılığı, qonşunun pisliyini istəmək.**

Arian birliyindən danışmaları da bu xəstəliyin uzunsürən görüntüsündən başqa bir şey deyildir. İranlıları öz qonşuları, bir sözlə qafqazlı azərbaycanlılara qarşı qaldırmaq istəyilə uydurulan bu quramaya özlərinin də yaxşı dəyər verdiklərini düşünmürük!...

Bizcə, qonşu pisliyini istəməyin burada da tək etkili koşul olduğunu göstərməyə gərək yoxdur. **Ancaq bu yolun erməni ulusuna çox baha oturduğu bütün dünyaya bəllidir. Yanlış yolun harasından dönülürsə, qazancdır!...**

Uluslarından çox öz duyğuları, çıxarları üçün çalışan bir sıra erməni siyasətçiləri ulusdaşlarını birgə yaşamalı olduğu qonşularına qarşı çıxmazlara yönəltməkdən çəkinərlərsə, onlar üçün çox ağıllı, çox gərəkli bir işdə bulunmuş olarlar!...

## NƏ PEYİNDİR, NƏ DƏ MATERİAL

(Kerenskilərə cavab)

> Bu yazı Kerenskinin «Dni» qəzetinin 60-cı sayında çap etdirdiyi «Rus ulusu üzərində diktatura» yazısına cavab kimi «Odlu Yurd» curnalının 11-ci sayında yayımlanmışdır.

Birinci Dünya savaşı ayrı-ayrı siyasi quruluşların gücünü, bərkliyini yoxlayan böyük sınaq oldu. Bu tarixi sınaqdan uğurla ancaq quruluşunda ulus başlanğıcı olan, ya da yönətimində ona geniş yer verilən dövlətlər çıxdı.

Dünya uluslarının bu savaşında Rusiya, Avstriya-Macarıstan, Osmanlı imperiyalarının yenilib dağılması tarixi uyğunluq idi. Yenənlərin birliyinin başında duran İngiltərənin dövlət sistemində belə, ulus baxımından, savaşa kimi olanlarla tutuşduranda böyük dəyişikliklər oldu.

İndi ulusları onların istəklərinə tərs olaraq, öz ağalığı altında saxlamağa çalışan imperialist dövlətlərin istəklərinin baş tutmayacağı aydındır.

Buna baxmayaraq – buna heç nə edə bilmirsən – bu günə kimi yaşayan bir sıra utopistlərin tarixin təkərinə kötük soxmaq istəyilə belə bir imperiya düşüncəsindən əl çəkmədiyi görünür.

Ola bilər sözün kimdən getdiyini duyursunuz. Rus siyasi sığınmaçılarının yaşamı ilə az-çox ilgilənənlərlə, başçılarını tanıyanlara onların yerini tapmaq çətin deyildir.

Rusiyanın siyasi sığınmaçılarının başçılarını dinləsək, dünya tarixinin gedişinin Rusiya ilə bağlı olmadığını düşünməliyik. Rusiya gəlişimində dünya tarixinə bağlı deyildir, onun öz gəlişmə yolları vardır. Dünya sosialist, elliklə demokratik axını proqramının özülündə dursa da, özlərini sosialist adlandıran

partiyaların elçiləri belə, ulusların çağdaş uluslararası özünübəlirləmə prinsipinin Rusiyaya da uyğulanmasının gərəkliyinə kəsinliklə qarşı çıxırlar.

Bu baxımdan keçmiş Rusiyanın Keçid Ağalığının başçısı Kerenskinin dəstəsi hamıdan aşırı çıxış edir. Özü də bu aşırılığın bütün acısı SSRİ-dəki türk respublikalarına, daha çox da Azərbaycan Ulusal Axınına yönəlmişdir.

Biz keçən yazıda Kerenskinin əməkdaşlarından Xondkaryan ağanın araqarışdırıcı yazısını araşdırmışdıq, indi də Kerenskinin yazısını araşdırmalı olduq.

Kerenski yazısını QPU [Baş Siyasi İdarə-KQB] agentlərinin Qazanda tatar komunistləri içində ortaya çıxardığı «ulusalçılıq uklonu»ndan başlayıb, «Sultan Qaliyevçi»liyə keçir, «pantürkizm»lə qurtarır. Görünür bu «qorxuncluq» qarşısında ruhu pozulduğundan, o, cəhənnəm ağrı-acısına uğramıştək anlamsızca sayıqlayır: demə, «sultanqaliyevçilər» rus toprağını «keçmiş Rusiyanın necə deyərlər, əzilən ulusları arasında» bölmək istəyirlər.

Necə deyərlər əzilən uluslar!...Rus monraxiyasında ulusların əzilməsi gerçəyini də qımışaraq («necə deyərlər, əzilənlər…») yazıb, qorxu içində «Rusiyanın bölünməsi»ndən hayqıran, özünü demokrat, radikal, sosialist adlandıran Kerenskinin düşkünlüyünün dərinliyini görün. Özü də necə bölünmə: **«Qafqaz gürcülərə, dağlılara, azərbaycanlılara, Kiçik Rusiya ukraynalılara, Sibir yakutlara, buryatlara, eləcə də başqa yadellilərə, Volqadan o yana Orenburqdan, Sibirdən başlayıb Türküstandakı Pamirə kimi pantürkçülərə, başqa sözlə Qazan tatarları ilə kamalçıların birliyinə verilir».**

Yaxın keçmişdə çox böyük dövlətin başında durmuş, yenə də bunu arzulayan adamın soyadını coğrafi, siyasi anlamsız «Pamir – Qazan tatarları ilə kamalçılar birliyi» kimi açıqlamanın altında görəndə kerenskilərin düşdüyü siyasi cəhənnəm qorxusunun gücünü, dəyərini anlayırsan.

Ancaq Kerenskinin dalğınlığı təkcə bununla bitmir. Onun düşüncəsincə, bütün gərəkənlərlə rus ulusunun ulus düşüncəsini, duyğusunu öldürən bolşevizm, tərsinə, rus olmayan ulusları bu duyğuya şirnikləndirir, indi güclənən «separatçı axın» da bu siyasətin doğal sononcudur…

Kerenskilər yaşamdan, yaşanan çağın istəklərindən necə də uzaqlaşıblar! Elə bil heç nə olmayıb – nə dünya savaşı, nə görüntü imperiyaların dağılması, nə də rus çarizminin çökməsi!...

Çarizm dönəmindəki rus geriçiləri hansısa bir ulusal axında dış etkənlər, ulusun hansısa çaxnaşmasında «Avropa intriqası» gördüyü kimi, Kerenskitək ağalar da eləcə ulusal axınları «separatizm» adlandıraraq, onlara dışın tapşırığı ilə işləyən güclərtək baxırlar.

Kerenskiyə görə **«Rusiyadakı bütün separatçılar bu, ya da başqa dış ağalıqla bağlıdırlar».**

Bu düşüncə əli altındakı uluslar arasında sayğınlığının azalmasına dözməyən bütün imperialistlərin baxışı deyilmi? Kerenskinin dilindəki «panturanizm» terminilə Suvorinin «Novoye vremya»sındakı [Yeni çağ] adıyaman Menşikovun çox işlətdiyi «panislamizm»in nə ayrılığı vardır?

O, Momzenin [Nobel ödüllü alman yazıçısı, tarixçisi, filosofu] sözlərini dəyişərək deyir: «Rus ulusunun nə başqa uyqarlıq üçün peyin, nə də özgə dövlətin tikilməsi üçün

material olmaq istəməyəcəyinə güvənməliyik!». Bunun olmaması üçün də o, göründüyü kimi, rus ulusunu **«SSRİ-nin bütün uluslarının alışdığı o ulusalçılıq duyğusu ilə yanmağa çağırır».**

Biz Kerenski kimi ağalara biryolluq bildirməliyik: nə «seperatizm», nə də «Rusiyanın bölünməsi» sözü yoxdur. Bizə görə bu sözlər heç yerində də işlədilmir: birincisi, çağdaş uyqar insanlığın, demokratiyanın ən uca çağırışı – ulusların özünübəlirləməsinə uyğun olaraq ölkəsinin yadellilərin tutmasından qurtarılmasına, bağımsızlığının tanınmasına yönəlmiş ulusal axınını «seperatizm» adlandırmaq düzgün deyildir. Axı, Belçika ulusunun Almaniyanın tutmasından qurtulmaq savaşını seperatizm adlandırmaq kimsənin ağlına gəlmirdi!

Buna uyğun olaraq, bizcə, Azərbaycan, Gürcüstan, ya da Ukraynanın rus tutmasından qurtulmasına yönəlmiş axınlarını da seperatizm adlandırmaq olmaz! Axı, Kerenski kimi ağalar çexoslovakların, xorvatların, eləcə də başqa ulusların Avstriya-Macarıstan İmperiyasına qarşı yönəlmiş axınlarına dağıdıcı seperatizm kimi baxmayıblar. Onda nə üçün Quzey Qafqaz, Türküstan, Qazan, Krım, eləcə də başqa ulusların axınlarını dağıdıcı seperatçı olay sayırlar?!...

Bu uluslar yurdlarının bağımsızlığı üçün seperatçı yox, gerçək savaş edirlər, Rusiyanı bölmək düşüncələri də yoxdur, tərsinə, biz Rusiyanın çiçəklənməsini, ulusal sınırlarında topraq bütünlüyünü qorumasını ürəkdən istəyirik.

Ancaq Kerenski kimi ağalar da bu gerçəyi anlamalıdırlar: Qafqazın azərbaycanlılara, gürcülərə, dağlılara keçməsi Rusiyanın bölünməsi anlamına gəlmir. Eləcə də nə Ukrayna, nə

də Türküstanın Rusiyaya heç bir qatışacağı yoxdur.

Biz, bu ulusların doğal hüquqlarını almaq istəklərinə, bağımsızlığa, ulusal topraqlarında ağalığa çatmalarına nə üçün Rusiyanı parçalamaq aktı kimi baxıldığını anlaya bilmirik!

Bu axmaqlığı ancaq rus ulusunun keçmiş Rusiya İmperiyasındakı rus olmayan uluslara bir sıra ağalıq hüquqlarının olmasını düşünən adamlar deyə bilər.

Tarixin dağıntıları içindən romanovlar ailəsinin imperiyasını diriltmək istəyənlər də olmaqla, kimsəyə düşüncəsini söyləmək yasaq deyildir. Qoy istəsinlər, bu onların huququdur. Ancaq yaxşı olardı onlar bu arada vicdanlarını itirməsinlər.

Kamalizmdən, onun saldırıcı planlarından danışırlar. Biz isə işdə nə görürük? Kamalizm «Misaq-i Milli» [Ulusal Anlaşma] sınırlarından qıraqda qalan bütün Osmanlı topraqlarından kəsinliklə, ünlə əl çəkdi, bu tarixi gerçəkliyə uydu.

Ona yapışdırılmağa çalışılan «panturanizm» planları «panrusistlər»in dəyirmanına su tökmək istəyənlərin çox bic taktiki gedişindən başqa bir şey deyildir.

**Varlığı ilə Sovet İttifaqında türk ellərinin ulusal, doğal axınlarını yaxşı yöndə etkiləyən çağdaş, gerçəkçi «türkizm» sözsüz, «panrusizm»in yağısıdır.**

Panslavizmin Avstriya-Macarıstan İmperiyasında oynadığı rolu ola bilsin «türkizm» də Rusiya İmperiyasının yeni biçimi olan Sovet İttifaqında oynasın. Axı, təkcə Avstriya-Macarıstan İmperiyasının dağılması ilə «slavyanofilçiliyin» keçmiş romantiklərinin çoxdankı istəkləri gerçəkləşmədi.

Panturanizm özünün romantik biçimində panslavizmdən daha gücsüzdür. Bu, Kerenski kimi ağalara yaxşı bəllidir. Ancaq onların anlamı bizə aydın olan taktikaları vardır:

Qafqazın türk olmayan uluslarını qorxuzmaq, rus ulusunda şovinist ruh oyatmaq!

Biz - «Prometey» etdiyi kimi - Kerenski kimi ağalara onlar rus ulusunda şovinizmi dəstəkləməklə, ancaq keçmiş Rusiya İmperiyasının indi özgürlüyünü əldə etməyə çalışan uluslarının yox, dünən Rusiyadan ayrılmışları, eləcə də imperializmin saldırıları altında sürəkli qalmış ölkələrin də quraşdırılacaq Rusiyaya qorxu ilə baxacağı, **onlardan heç kimin «nə rus uyqarlığına peyin, nə də rus dövlətinə material olmaq istəməyəcəyi»ni** qazanacaqlarını deyirik.

# PANTURANİZM. QAFQAZ SORUNU[1]

## I

### Böyük dövlətçilərin boşboğazlığı

Rus basınının bir-birinə yağı olan iki düşərgəsi son çağlarda Rusiyaya qorxu olub, «Turan topraqları»nı, başqa sözlə, Sovet İttifaqının türklər yaşayan, siyasi yönətimcə özəl ulusal quruluşlara ayrılmış bölgələrini ondan qoparmağa çalışan panturançılıq axınından əlbirliyilə çox danışmağa başlamışdır.

Sovet reciminin başdan-ayağa çürüdüyü, komunist partiyasının aşındığı çağda Rusiyanın ən böyük gerçəklərindən biri **uklonizmdir**.

Uklonizm Rusiyanın özündə sosial-sinfi özəllikli olsa da, Sovet İttifaqının rus olmayan ucqarlarında bəlli nədənlərlə ulusal-siyasi özəllik qazandığından, burada Sovet komunist diktaturasına qarşı çıxanların sosial kimliyi ulusla bütövləşir.

Sinfi, eləcə də ulusal uklonçuluqla savaşan bolşeviklər boşboğazlıq etmədən keçinəmirlər. Onlar köylü axınının ideoloqları ilə geniş demokratik yenidənqurmaların dönməzlərini çox ara iri topraq mükiyətçiliyində, monarxiyanın dirçəldilməsində suçlayıb, əkinçiləri yenidənquranların öc alacağı ilə qorxuzurlar.

Onlar ulusal axınların öncüllərini **«Rus ulusu üzərində diktatura»**[2] qurmaq istəyən «şovinist»lər kimi göstərdiyindən,

---

[1]Paris, mart 1930-cu il.
[2]Deyim Kerenskinin yazısının başlığından alınmışdır.

adlarının çəkilməsi belə rus ulusunun ulusalçı kəsimlərində çaxnaşma burulğanı yaradır, Sovet Ağalığını istəməsələr də, Rusiyanın bütövlüyünü, onu böyük kapitalist dövlətlərin **«Gürcüstanda menşeviklərin, Azərbaycanda müsavatçıların, Ukraynada petlyurovçuların, Turküstanda basmaçıların, eləcə də başqa seperatçı axınlarını ustalıqla dəstəkləyib»** «öldürmə»sindən qoruyan tək gerçək güc kimi görürlər.

Moskva qəzetləri son dönəmdə belə uklonlardan birini Tatarıstan Respublikasının komunistləri içində tapmışlar. Bolşeviklərin dediyinə görə, Tatarıstanın uklonçu komunistləri Sovet İttifaqının bütün türk ellərini birləşdirəcək «Turan dövləti» yaratmağa girişiblər. Panturançı komunistlər guya panturançı istəklərinə görə dış güclərlə, basmaçılarla, eləcə də Türküstandakı Ənvər paşanın axını ilə ilişkisi olan, 1923-cü ildə partiyadan qovulmuş tatar komunisti Sultan Qaliyevin[1] göstərdiyi yolla getmişlər.

Sovet basınının gerçək özəlliyi olan boşboğazlıq indi rus sığınmaçı basınında geniş hay-küy yaratmışdır. Sovet publisistlərinin Moskvada «sultanqaliyevçilik»dən yaratdıqları quramanı Parisdə əlbirliyilə «kerenskiçilər» sürdürdülər. Öncə Xondkaryan ağa, ardınca Kerenski özü bu olaydan yararlanaraq olduqca biryönlü yazılarında rus demokratiyasının gözünü, istəyi Rusiyanı bölüb **«Rus ulusu üzərində diktatura qurmaq» olan «panturanizm»in yaxınlaşan qor-xusuna** yönəltməyə çalışdılar.

---

[1]Sultan Qaliyev ixtisasca öyrədəndir. 1923-cü ildə onu Sovet Ağalığına qarşı gizli işləməkdə, ulusalçılıq uklonunda suçlayıb güllələnmə verdilər. Sonralar partiya qurultayı devrimə etdiklərini gözə alıb bağışladı, ancaq partiyadan çıxardı.

Rus ulusalçıları qarşısında suçlarını yumaq istəyən Kerenski ağa bu «qorxu»nu göstərməklə rus nasionalizminin ən yaralı duyğusunu oyatmaq istəyir. Sosialist Rusiyanın devrimçi Keçid Ağalığının başçısının düşüncəsinə görə, **«Rus ulusu başqa uyqarlıqlara peyin, özgə dövlətlərin tikintisində material olmaq istəmirsə, rus olmayan ulusların alovlandığı kimi ulusal düşüncəsinin qutlu özünüanlama alovunda yanmalıdır».**[1]

Kerenskinin təkcə bu açıqlaması ilə «panturanizm»dən, onun Rusiyaya yönəlmiş «saldırıcı planlarından» danışan rus siyasətçilərinin, publisistlərinin hansı yol tutduqları çox aydın görünür.

Ancaq genəl amacdan başqa onlar bu strategiya ilə heç də gərəksiz olmayan ikinci istəklərini yeritməyə çalışırlar. Görünür onu başa çatdırmağı da «Dni»nin [Günlər] əməkdaşı Xondkaryan ağa boynuna götürüb. Onun işi yaxşı işlərdən deyildir. O, Rusiyanın bağımsızlığa çalışan türk ellərinin bütünlüklə, daha çox da azərbaycanlıların Rusiyadan ayrılıb Türkiyəyə birləşmək istədiyini düşündüklərini göstərməyə çalışır. Sözsüz, boşboğazlar bununla Qafqaz Konfederasiyası yaratmağın gərəkliyini anlamış Qafqaz ellərinin beyninə umudsuzluq salıb, psixoloci bölməyə çalışırlar.

«Panturanizm»dən qaldırılan bütün hay-haray iki anlam daşıyır:

1. **Rus ulusu oyan, səni yeni Moğol axını gözləyir!**
2. **Qafqaz ulusları düşünün, Rusiyadan ayrılandan sonra Türkiyənin ağalığı altına düşəcəksiniz!**

---

[1]«Dni» № 60.

## II

# ZAREVANDIN PAMFLETİ

Rus sığınmaçı basınındakı bu hay-küyünün qaynağı Zarevand adlı birinin son çağlarda yayımlanmış «Türkiyə. Panturanizm» adlı pamfletidir.

Pamflet [sataşma] keçmiş çar Rusiyasının İstanbuldakı Böyük Elçiliyinin baş çevirəni, uluslararası hüquq ilişkiləri bilicisi Mandelştam ağanın Zarevandın kitabına verdiyi «bütünlüklə obyektivdir» dəyərilə başlayır.

Kitabın ilk bölmələrindəki türkçülük axının yaranma tarixi, panturanizm ideologiyasının oluşumu ilə bağlı deyilənlərlə, onun yazarın obyektivliyinə verdiyi dəyərilə Mandelştam ağa ilə bəlkə də barışmaq olar. Ancaq bu obyektivlik yazara **elmi yox, ancaq diplomatik biçimlərdə** gərəkdir. O, başlanğıcda oxucunu bir sıra obyektivliklə ələ alıb getdikcə subyektiv istəklərinə daha çox qurşanaraq hay-küyçü ədəbiyatın çox parlaq örnəklərini verir. Bizim günlərə yaxınlaşdıqca ondakı subyektivizm, hay-küyçülük, gerçəklərin qatışdırılması, doğrulamalarının tutalqasızlığı daha da gözə çarpır.

Bu dəyərləndirməmizdə tutalqasız görünməmək üçün sözlərimizi bir sıra örnəklərlə doğrulamağa çalışacağıq:

Başdan-ayağa yalan:

1. Guya 1913-cü ildə Bəyazid kəndində panturançıların qurultayı keçirilib, Azərbaycandan Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov o

qurultaya qatılıb.

Mən ömrümdə Bəyazid kəndini görməmişəm!

2. Guya Azərbaycanın Baş bakanı, rəhmətlik Fətəli Xan Xoyski türk ordusu gələndə pantürkçü çıxış edib.

3. Guya Ərzurumda Azərbaycanla Türkiyə Ermənistana qarşı savaş anlaşması bağlamışlar. Burada Kazım Qarabəkir paşanın məktubuna dayanılsa da, bu bilginin düzgün qaynağı göstərilmir.

4. Guya Akçura bəy çıxış edib ermənilərin öldürülməsinin gərəkliyini söylədi. Bu suçlamanı deyərkən onun düzgün qaynağını göstərmək gərəkirdi.

5. Guya mən Sovet okullarında inspektor olmuşam. Sovet yox, genəlliklə heç yerdə, haçansa, hansısa okulun inspektoru olmamışam.

6. Guya Əhməd bəy Ağayev İstanbulla Astarxan arasını gəzmişdir. O belə gəzintidə olmamışdır!

7. Guya Akçurinlə İsmayıl bəy Qaspıralı Gənc türklərin «İttihad və Tərəqqi» partiyası MK-nın üyələri olmuşlar. Onlar beləsi olmayıblar!

Bunlar Mandelştam ağanın «obyektiv» dediyi yazarın bilgilərinin yalanını, tutalqasızlığını göstərən bir sıra örnəklərdir.

Faktların dolaşdırılmasını göstərmək üçün isə aşağıdakı örnəyi gətiririk:

Zarevand ağa **«Türkçülüyün əsasları»na** dayanaraq rəhmətlik Ziya bəyin dilindən aşağıdakıları bildirir:

**«Oğuzıstan yaxın gələcəyin böyük Türkiyəsidir».**

Ziya bəy isə «Türkçülüyün əsasları» kitabının 20-ci səhifəsində bununla bağlı deyir:

«Bu gün ancaq Oğuz türklərinin kültür birliyini düşünmək olar. Türkiyənin, Azərbaycanın, İranın, Xarəzmin türkləri Oğuz

türkləridir. Bax, buna görə türkçülüyün yaxın idealı Oğuz, ya da Türkmən birliyidir.

Bu hansı birlik olmalıdır? Siyasimi?

İndilik yox, gələcəkdən danışmağa isə gərək yoxdur. **Bizim indiki idealımız ancaq oğuzların kültür birliyilə sınırlıdır. Türkçülüyün yaxın amacı bu topraqlarda (Oğuz ellərində) təkcə kültürün ağalığına çalışmaqdır!**».

Bax, gerçəklərlə belə oynayırlar!...

Zarevand ağa Ziya bəyin savaş çağında yazdığı, Rusiyanın dağılmasından, onun dağıntıları üzərində «Turan»ın yaranmasından danışılan şeirini sıralayır, ancaq Ziya bəyin sonra o «Turan»dan nə yazdığını gizlədir. Ziya bəy Oğuz birliyindən yuxarıda verdiyimiz abzası panturanizmlə bağlı baxışları ilə bitirir.

**«Panturanizm – bu, Leninin komunizmi, Məhəmmədin cənnəti kimi utopiyadır!** İdeal kimi onun ancaq insanları romantik qıcıqtək alovlandırmaq, devrimçiləşdirmək dəyəri vardır».

Biz başqa örnəklər də gətirə bilərdik, ancaq bu da yetər. Dinləyicilər aşağıda bir az ayrı yöndə açıqlayacağımız gerçəklərdən başqa örnəklər də tapacaqlar.

## III

# PANTURANİZM ÇAĞIMIZDA

Zarevand ağanın əsərinin gerçəyə bütünlüklə tərs olan başlığının adı belədir. Aydınlatmaq üçün «çağımızın panturinizm»ini Zarevanda görə, bir də bəlgələrlə, gerçəklərlə göstərməyə çalışacağam.

Zarevanda görə çağımızın «panturanizm»i kamalizmdir. **Kamalizm «yüzdə-yüz büllurlaşmış türkçülükdür».**

Yazarın dediyinə görə Mustafa Kamal «bir ara pantürkçülükdən yetkili olaraq əl çəkmiş olsa da, panturançılıq proqramının böyük bölümünü işdə uyğulamışdır».

Zarevand ağanı görkəmli Mandelştam da doğrulayır. Baxın, o nə yazır: «Görünür panturançılıq ideyaları ilə qovuşmuş o tək amac (Mustafa Kamalın amacı) türkləri altdan-altdan Rusiyanın yerində böyük Turan dövləti yaratmağa yönəldir».

Zarevandın panturanizmdən olan nağılı da elə bu sözlərlə başlayır: **«İndiki çağın panturanizmi Türkiyədə ağalıq edən siyasi doktrindir».**

Kitabın sonrakı yerlərində ayrı-ayrı biçimlərdə aşağıdakı düşüncə yeridilir: «Mustafa Kamal göydən ulduz tutmur. O ancaq Türkiyə pantürkçülərinin son onillikdə biçimlədiyi toplumsal düşüncəyə ürəkdən bağlılığına dayanaraq yaratdıqları türkçülük proqramını uyğuladı. Bununla da o, adını panturanizmlə kəsinliklə bağladı».

«Bütün türk-tatar uluslarının birləşməsi ideyasının indi də türklərin ulusal idealı olduğuna heç bir quşqu yoxdur. Kamal paşanın ağalığı bu ideyanı ölkəsində açıq, özgürcə yaymağa

qoyduğu kimi, bütünlüklə dəstəkləyib sayğınlığının gücü ilə yaşayanlara uyğulayır».

Bir sözlə: **«Kamalçıların bayrağı pantürkizm, panturanizm idi!».**

Zarevand ağanın bizə çəkdiyi görüntü budur. İndi də gerçəklərin, bəlgələrin nə dediyinə baxaq.

Biz Zarevanddan «kamalçılığın yüzdə-yüz türkçülük olduğunu öyrəndik».

Bəs türkçülük nədir?

Türkçülüyün tanınmış quramaçısı Ziya bəy ölümqabağı yazdığı, 1923-cü ildə Ankarada çap olunmuş «Türkçülüyün əsasları» kitabında bu sualla bağlı aşağıdakıları deyir:

«Türkçülük siyasi axın deyildir, elmi-fəlsəfi-estetik okuldur. Başqa sözlə, bu, kültürdə birləşmə yoludur. Buna görə də türkçülük bugünədək siyasi partiya biçiminə girmə-mişdir. Onun bundan sonra da bu yola keçməyəcəyi sözsüzdür.

Buna baxmayaraq türkçülük siyasi amaclara da yad deyildir, onlardan bütünlüklə qaçamaz, kültür ideallarıtək siyasi ilkələri də vardır.

Türkçülük heç çağ, heç bir biçimdə klerikalizmlə, dinçi ağalıqla, geriçiliklə barışamaz. Türkizm çağdaşlıq axınıdır. O ancaq çağdaş ideya axınları ilə barışa, uyğunlaşa bilər.

**Biz siyasətdə ulusalçı, kültürdə türkçüyük!».**

Türkçülüyün belə bəlirlənməsi türkçülük ideologiyasının başqa bir sayğını Yusif bəy Akçura oğlunun son bildirişilə doğrulanır.

Zarevand Yusif bəyin 1908-ci ildə yazdığı «Siyasətin üç sistemi» kitabını incələyərək, onun pantürkçülərə **«komunist manifesti»**nin marksistlərə gərəkliyi dəyərində olduğunu deyir. Bax, **panturançıların bu Marksı** 1928-ci ildə yayımlanan türk

illiyində (Türk ili) türkçülüyün tarixini açıqlarkən, yeri gəlmişkən özünün «Siyasətin üç sistemi» kitabına toxunaraq aşağıdakıları deyir:

«…Ancaq bu gün mən oçağkı incələməmdə gözəçarpan bir çatışmazlıq görürəm. Mən **«türkçülük siyasətini» «pantu-ranizm»**dən, **«islam siyasətini» «panislamizm»**dən ayıra bilsəydim, **«Türkiyədə türkçülük, ya da islamçılıq siyasəti yürütmənin heç də dışda pantürkçü, panislamçı olmaq olmadığını»** bilərdim.

Mən o çağda bunu ayıra bilsəydim, ola bilər 1908-ci ildən sonrakı bütün olayları üncədən daha aydın görərdim».

«Türk ocaqları» «türkçülük» anlayışını siyasətdə uyğulamaqdan ötrü 1927-ci ildəki qurultayında İç düzüyünün birinci düzüyünü dəyişərək, çalışma alanını ancaq Türkiyə Respublikasının sınırları ilə bəlirlədi.

Rəhmətlik Ziya bəyin öyrəncisi, İstanbul Universitetinin professoru, iqtisadçı, sosioloq, tanınmış curnalist, indi Böyük Millət Məclisinin elçisi Nəcməddin Sadiq bəy rəhmətlik öyrədəninin bir anma törənində onun öyrətimini elmi-sosioloci incələyib, gerçəklərə dayanaraq göstərdi: Ziya bəy çox yayğın **«Turan»** anlayışı altında ancaq **«Türk Türkiyəsini»,** başqa sözlə özünü ulus kimi anlamış **«Türkiyəni»** düşünürdü.

Bu yozumdan **«Turan»ın** təkcə **«Türk Türkiyəsi» yox, «Türk Azərbaycan»ı, «Türk Türküstan»ı, eləcə də başqaları olduğu** aydındır.

**Son çağın türkçüləri** ilk axınçılardan ayrı olaraq **ulusu ancaq irq göstəricilərilə bəlirləməyib ona ayrı-ayrı tarixi, sosial, kültür etkenlərinin qarşılıqlı ürünü kimi baxdılar.**

Bu doğal dəyişimin sononcunda türkçü aydınlar içərisindən ulusun ən başlıca birləşdirici gerçəyinin irq olduğunu alqı-

lamayan ayrı-ayrı «denətimçilər» ortaya çıxdılar. Bu denətimçiliyin ideya atası **«Anadolunun geosiyasisi Anadolu ulusunun yaradılması üçün ən yaxşı özəkdir»,** – deyən Xəlil bəy Mükrimin oldu.

Bu ideologiyanın etkisilə bir ara **«Andadolu»** adlı curnal da buraxan ayrıca bir **«anadoluçular»** okulu yarandı. «Anadoluçular»ın bildirişlərinə görə **«türk»** sözü **ulusu yox, irqi** göstərir, ayrıca bir türk ulusu yoxdur, ancaq türk irqinin ulusları vardır. Onlara görə **«türklər»ə türk yox, anadolulular** deyilməlidir. Bu baxımdan onlar çox irəli gedərək respublikanı **Türkiyə** yox, **Anadolu** adlandırmağı irəli sürdülər.

Bu anadolu ulus baxışı təkcə bir sıra aydınların düşüncəsini sarmamışdır, onu Türkiyə Respublikasının yüksək görəvlilərinin siyasi düşüncəsində də görmək olur.

Kamal paşa 1928-ci ildə Cümhuriyyət Xalq Partiyasının qurultayındakı çıxışında Türkiyənin bağımsızlıq savaşının tarixinindən geniş danışaraq Türkiyənin çağdaş siyasətinin baş yollarını göstərdi. Bu çıxışın özü türk dilində basında çap olundu, alman, fransız dillərinə çevrilmişi də vardır.[1]

Bu çıxışdan bizi ilgiləndirən bölümü alırıq. Mustafa Kamal dış siyasətin başlıca ilkələrini bəlirtərək sözü-sözünə aşağıdakıları deyir:

«Yaşam başdan-başa savaşdır. Yaşamda ancaq uğurlu savaşla uğur qazanmaq olur. Buna isə ancaq siz maddi-mənəvi güclü olanda çatılır. İnsanları çulğayan bütün suallar, onların düşdüyü bütün qorxular, qazandıqları uğurların bütünü çoşqun birgəsavaş dənizinin dərinliklərindən gəlir.

**Dünya tarixinin baş səhifələri Doğu uluslarının Batıya**

---

[1]Bu yaxınlarda rus dilinə çevrilmişi də yayımlanıb. Moskva çapı.

**saldırdığını yazır. Bu ulusların başında türk ulusunun durduğu bəllidir. Doğrudan da türklər** islamadək, eləcə də islamdan sonra Avropanın dərinliklərinə kimi girib, ölkələri tutmuş, insanları incitmişlər. Batıya saldıran Doğu elləri içində İspaniyanı yürüşlərilə tutub Fransa sınırınadək çatan ərəblər də var idi.

Ancaq bəylər, bütün saldırılar tərs saldırı oyadır. Yağıların bu saldırılarını üncədən görməyən, bununla bağlı gərəkən ölçülər götürməyən güclər yenilir, ölürlər.

Ərəblərə qarşı tərs saldırı Əndəlusda acı, sarsıdıcı dağılma ilə başladı, ancaq onunla qurtarmadı, izləmə bütün Quzey Afrikada da sürdü.

Atillanın frankların topraqlarına, Batı Romayadək uzanan imperiyasını yada salaq. Onun ardınca Səlcuq dövlətinin dağıntılarından yaranmış Osmanlı İmperiyasına göz atıb, onun İstanbulda Doğu Romanın tacını aldığı çağa baxaq. Osmanlı sultanlarından Almaniya ilə Batı Romanı tutub böyük imperiya yaratmaq istəyən də var idi. Onlardan bir başqası bütün müsəlman topraqlarını bir ağalıqda birləşdirmək istəyirdi. Bu amacla Suriyanı, Misiri tutmuş, xəlifə adını almışdı. Üçüncü sultan Avropanı tutub bütün müsəlman dünyasını da öz ağalığında saxlamağı düşünürdü.

Batının bitməyən qarşı saldırıları, müsəlman ölkələrindəki qurtarmayan ayaqlanmalar, belə dönəmlərdə yaraq gücü ilə bir ağalıqda birləşdirilmiş ayrı-ayrı güclər arasında olan qaçılmaz çəkişmələr sonda Osmanlı İmperiyasını da başqa imperiyalar kimi tarixin arxivinə atdı.

Ölkənin dış siyasəti üncə onun iç quruluşuna dayanır, başqa sözlə dış siyasət ölkənin iç qurluşuna uyğun olmalıdır. Batı ilə Doğunun ayrı huylu, kültürlü, istəkli ellərini içinə almış

dövlətin iç quruluşu isə, sözsüz, dözümsüz, boş olacaqdır. Belə olanda dış siyasət də gücsüz olur. Belə dövlətin iç quruluşu ulusal olamaz. O, ulusal siyasət yeridəməz. **Bax, nə üçün Osmanlı dövlətinin siyasəti ulusal deyildi?** O, özünün aydın olmayan, adda-budda, qırıq-qırıq siyasətini yürüdürdü.

Ayrı-ayrı ulusları bir ad altında toplayıb, bu dəyişik soyluları oxşar yollarla, yasalarla yönətmək proqramı çəkici olsa da aldadıcıdır. **Bunun kimi, dünyanın bütün türklərini içinə alacaq bir dövlət yaratmaq amacı da gerçəkləşməz düşüncədir.** Bu, bir neçə yüzillər boyu ağrı-acı ilə yaşanmış, çox qanlı olaylarla keçmiş gerçəkdir.

**Tarix bizə panislamizm, ya da panturanizm siyasi sisteminin uğurla uyğulandığını göstərən bir gerçəyi, olayı belə vermir.** İrqi yox, elliklə insanlığa dayanaraq, ancaq tutuculuq istəyilə yaradılmış dövlətlərin gələcəyi tarixdə yazılmışdır. **Biz hansısa tutuculuq sapmasından uzağıq!** Humanist ideyalara dayanıb insanların bütün ulusal duyğularını, özəl istəklərini unutduran dövlət qurmağa gəlincə, bundan ötrü uyğun ortamın olması gərəkdir.

**Bizə görə aydın, uyğulanabilcək tək gerçək siyasət ulusal siyasətdir!**

Çağdaş dünyanın gerçək durumu, onun yüzillərcə ağıllarda, huylarda kökləşmiş genəl düzəni, gerçəkləri **bizi siyasətdə utopist olub bağışlanmaz suç buraxmağa qoymaz.**

Tarixin anlamı, elmin, ağlın, məntiqin buyuruğu belədir!

Dövlət ulusumuzun güclü, sağlam olub dincliklə yaşaması üçün bütünlüklə ulusal siyasət yeritməlidir! Bu siyasətin dövlətimizin iç qurluşuna bütünlüklə uyğun olması da gərəkdir.

Mən ulusal siyasət deyərkən aşağıdakıları gözə alıram:

Öncə ulusal siyasətində qalıb öz güclərinə arxalanmaqla

varlığını qorumaq, böyük səadətə, uğura çatmaq amacı ilə ölkənin yaxşılığı üçün çalışmaq. **Kəsə desək, ulusu gerçəkləşməz, utopik amaclar dalınca qoşdurub soyğuna uğratmamaq. Uyqar dünyadan uyqar insan yanaşması gözləyib onunla dostluğu sürdürmək».**[1]

Bax, Zarevandın **diplomatik** deyib 1921-ci il Qars anlaşması ilə yozmağa çalışdığı bildiriş budur.

Ancaq biz burada da gerçəklərlə oynandığını görürük. Bu çıxış **Moskva, Qars anlaşmalarından** yox, **Lozanna anlaşması**ndan çox-çox sonra edilmişdir…

Bu, **diplomatik** yox, daha çox **doqmatik, utopik panturanizmi** çox açıq, kəsinliklə atmış çıxışdır. Bax, «**Çağımızın gerçəklərə, bəlgələrə dayanan panturanizm**»i belədir.

---

[1]Bütün ayırmalar bizimdir.

## IV

# PANTURANİZM KEÇMİŞDƏ

Gördüyünüz kimi, biz indi türk ellərinin toplumsal-siyasi yaşamında bəlli bir ara yeri olmuş panturanizmin bütün romantik görüntülərindən ayrılmış gerçəkçi türkçülüklə üz-üzəyik.

Doğudakı ulusal axınlardan biri olan türkçülük Batıdakı, çox ara geriçi olay sayılıb, şovinizm deyilən nasionalizmdən bir az ayrıdır.

Şovinizm saldırıcı axın olub, ulusal oluşmuş hansısa böyük kapitalist dövlətinin ağalığını daha çox gücləndirmək, topraqlarını genişləndirmək istəklərinə dayanır. Avropa nasionalizmi siyasi saldırıcı, sosial tutucu ideologiyadır. Doğudakı ulusalçılıq isə siyasi qurucu, sosial yenilikçi olaydır.

Napoleonun savaşları Avropanın batısı ilə doğusunda ayrı-ayrı axınlar doğurduğu kimi, böyük dünya savaşı da Batı ilə Doğunun toplumsal axınlarının huyunu ayrı cür etkiləyirdi.

Bu olaylarda Batıda sosial partlayışlar göründü, Doğuda isə tərsinə, ulusalçı axınlar önə çıxdı.

Bu olayın öz açıqlaması vardır. Batıdakı toplumsal axınlar daha çox sosial nədənlərdən yaranır, toplumun gəlişməsini yubadan sosial qatlar, iç güclərinin basqısı ilə qırılırdı.

Doğu toplumlarındakı Orta çağının dərəbəy quruluşları isə dış güclərin etkisilə dağılırdı. Dışdan olan bu basqı da doğal olaraq irəli sosial yox, ulusal ideyaları çıxarırdı.

Orta çağ ortamında doğulan ulusalçılıq klerikal ideologiya ilə yoluxmaya bilməzdi. Doğunun müsəlman dünyasında

panislamizm ideologiyasını doğurmuş erkən ulusalçılığın dinçi huyu bununla bağlıdır.

Panislamizm bir ara, demək olar, bütün müsəlman türk ellərini ilhamlandırırdı. Türk ellərinin toplumsal-siyasi axınında islam dini baxışı bir ara çox önəmli olmuşdur. İslam bilginlərinin çoxu müsəlman dünyasını son çöküşdən dinin köklü doqmalarına qayıtmaqla, o biri yandan da müsəlmanların siyasi birləşməsilə qorumağı düşünürdülər.

Ancaq islamçılıq ideologiyasının bu dini-siyasi ikiüzlüyü sonralar panislamizmdə iki axının ayrılmasının başlanğıcı oldu.

Bir axın dış güclərlə savaşan, ancaq o gücləri andıran hər bir yeniləşməyə qarşı çıxıb, hər hansı bir avropaçılığa savaş deyən ortodoksal-tutucu axındır.

Yenidənqurucu, ikinci axın isə Avropa saldırısı ilə siyasi savaşmaqla ideologiya alanında çağın liberalizmini şəriətə uyğun uyğulamaq istəyirdi.

Panislamizmdəki liberal-yenidənqurucu axın sonrakı gəlişməsilə müsəlman aydınlarında ulusal-kültürçü dünyagörüşünün yaranması üçün gərəkən özülü yaradırdı.

Bax, örnək kimi panislamizmin liberal-yenidənqurucu düşərgəsindən görkəmli bilgin Jəmaləddin Əfqani[1] müsəlmanların ulusal düşüncəsini oyatmağın gərəkliyini birinci göstərir.

---

[1]Əfqani XIX yüzilin ortalarında yaşamış, islam dünyasının ən böyük devrimçisi, panislamizmin quramaçısı olmuşdur. Yüksək oxuma görən şeyx Qahirənin tanınmış Camiül-Əzhar Universitetinin professoru olmuşdur. Ərəbi paşa ayaqlanmasının başçılarından biri Şeyx Məhəmməd Əbduh onun yetirməsi idi. Əfqani Londonda İngiltərə imperializminə qarşı yönəlmiş, panislamçı curnal yayımlayırdı. Sonralar ingilislərin izləməsindən qurtulmaq istəyilə Parisə gəlir, oradan Sankt-Peterburqa gedib Katkovun başçılığındakı slavyanofillərlə Hindistanda oyanış törətmək çalışmalarına başlayır. Ancaq o, tezliklə bu istəklərindən uzaqlaşıb Rusiyadan gedir. Əfqani bütün müsəlman dünyasını gəzmişdir. Onun ideyaları müsəlman ölkələrinin liberal axınlarını çox etkiləmişdir. Qacarlarla Osmanlıların sarayları onu güclü şəxsiyət sayırdı.

O, **«Ulus birliyinin fəlsəfəsi»** adlı yazıda **«Ulusundan qıraqda xoşbəxtlik yoxdur. Qohumluq dilsiz düşünüləməz. Dil isə toplumun bütün qatlarınının anlaşma nədəni olmazsa, özünün sosial görəvini yerinə yetirəməz»** baxışını doğrulayır.

Jəmaləddin Əfqaniyə görə, **dinlə dil** toplumu birləşdirən iki köklü başlanğıcdır. Ancaq dilin birləşdirici başlanğıctək dəyəri dininkindən çox gərəklidir. Əfqani açıqlayır: «**Biz, dilin dəyişmədən dindən daha çox qaldığını görürük. Biz, bir dildə danışan irqin min ildə dinini bir neçə yol dəyişdyini görürük».**

Jəmaləddin Əfqani deyir: «**Bütün müsəlman ulusları** özgür, bağımsız, uyqar yaşamaq üçün **uluslarını anlamalıdırlar!**».

Panislamizmin bu quramaçısının Doğunun müsəlman uluslarının özlərini anlamağının devrimçi dəyərini kəsinliklə göstərilməsi türk ulusal dünyagörüşünün ideoloqu, aşağıda geniş danışacağımız, mərhum Ziya bəydə aydınlanaraq bütünlüklə panislamizm ideologiyasına qarşı çevrildi. Onun «Türkçülüyün əsasları» kitabından aldığımız sözləri belədir: «…Bir ara panislamizm ideologiyasının müsəlman uluslarını özgürlüyə qovuşdurub, ölkələrini özgələrin əli altında olmaqdan qurtaracağı düşünülürdü. Yaşananlar isə **panislamizmin** bir yandan aşırı dini-klerikal-geriçi axın doğurub, o biri yandan da müsəlman dünyasında ulusal ideologiyanın yaranmasını əngəlləyərək, **bu ulusların ulusal özünüanlamasını, gəlişməsini yubadıb, onları özgür uluslara çevrilməyə qoymadığını** göstərdi. Ulusal özünüanlamanın qarşısını almağa çalışmaq isə bu ulusların bağımsız ağalıq yaratmasının qarşısını almağa çalışmaqdır. Dini-klerikal düşüncəyə gəlincə isə o, bütün çağlarda toplumu geri çəkir!

**Bütün gəlişmələrin mayası, ulusal bağımsızlığın özülü anlaşılmış «Mən» olduğunudan, bütün müsəlman ölkələrində ulusal özünüanlamanın güclənməsinə çalışılmalıdır!».**

***

XIX yüzilin birinci yarasında Türkiyənin dövlət adamları böyük dış dövlətlərin Osmanlı İmperiyasının iç işlərinə qarışmasından qorunmaq, bununla da imperiyanın dağılmasının qarşısını almaq üçün ölkənin siyasi yönətim quruluşunu yeniləşdirib, din ayrılığı qoymadan bütün insanların hüquqlarını eşitlədilər. Bu yenidənqurmanın (tənzimat) özəyi Sultan Əbdüləzizin Gülhanə Xətt-i Hümayunu [Ulu Gülhanə Yolu] adlı uca buyuruğunda açıqlandı.

Tənzimatın yaradıcıları bu liberalizmlə imperiyanın xristian uluslarının istəklərini bir az ödəmək, onları türk dövlətçiliyilə barışdırmaq istəyirdilər. Ancaq Doğu Avropanın bütün uluslarını dərindən çulğamış 1848-ci il devriminin ideyaları ilə alovlanmış, arxalarında Avropanın ayrı-ayrı dövlətləri, daha çox da Rusiya İmperiyası duran xristian ulusları «Xətt»lə keçinə bilməzdilər.

«Tənzimat» özünü doğrultmadı. O, xristian uluslarının ortadanqaçma istəklərini azaldamadı. Onlar başdan-başa ulusalçı axınlara qapılmışdılar.

İmperiyanın bütün uluslarının padşahın ağalığı altında birləşməsi – «Osmanlıçılıq» gerçəyinin dağılması **özlüyündə din birliyi olan islamçılıq tezisini gücləndirdi.** Bu siyasətin arxasında Sultan Əbdülhəmid dururdu.

Əbdülhəmidin anayasanı pozmasının qarşısını almaq çağırışı ilə başlayan Gənc türklər devrimi «tənzimat»da olan-

ları yenidən uyğulamaq istədi. Gənc türklər ağalığa «uluslara eşitlik», başqa sözlə **bütün yurddaşların dinindən, ulusundan asılı olmadan siyasi eşitliyi** çağırışı ilə gəldi. Ancaq Osmanlı İmperiyasının üncə xristian uluslarını çulğamış özünübəlirləmə tarixi sürəci tək bu çağırışla qurtarmadı. O, Balkan savaşı adı altında, Türkiyənin demək olar bütün xristian bölgələrini itirməsilə bitdi.

Bu yaşananlar «İttihad və Tərəqqi» (Birlik – Yüksəliş) partiyasının «Osmanlı qanadı»nı öldürüb, ondakı islamçı axını gücləndirdi.[1]

Ancaq az sonra müsəlman uluslarının da «çağın ruhu» ilə alovlandığı aydınlaşdı. Albaniyadakı ayaqlanma, ərəb aydınlarının ulusalçı axınları, eləcə də başqa çıxışlar Gənc türklərin panislamizm ideologiyasının gerçəkliyinə umudlarını kəsinliklə qırdı. Dünya savaşı da bunu aydın göstərdi. Ərəb bölgələri İstanbula qarşı ayaqlandılar, İngiltərənin Hindistandan olan müsəlman döyüşçüləri Dardaneli – müsəlmanların xəlifəsinin qutsal kəndindəki boğazı gülləyə tuturdu.

Bu ağır sınaq çağında türkçülük ideologiyası siyasi sistem kimi önə çıxmağa başlayır. Ancaq uyqar düşüncə biçimi olan türkçülüyün son onillərin savaş çağında yarandığını düşünmək yanlış olardı. Yox, o, birdən yaranmamışdır! Türkçülük türk aydınlarında özünü çoxdan göstərirdi. Yusif bəy Akçura oğlunun doğruladığına görə bu ovqat «tənzimat» dönəminin görkəmli şairləri Şinasilə Ziya paşada belə vardı. XIX yüzilin ortalarında yaşamış Vefiq paşa Osmanlı dilinin sözlüyünü yazıb, bu dilin köklərinin Türküstandakı dillərlə birliyini göstərmişdir.

---

[1]«İttihad və Tərəqqi» içində üç ayrı, özgür ideoloji sistemli osmanlıçı, islamçı, türkçü fraksiya olan siyasi toplum idi.

Biz ulusal ovqatın sonralar tarix-ədəbiyat alanındakı araşdırmalara keçdiyini görürük. Yeri gəlmişkən, bilənlər bu olayın türk toplumunun düşünən, tanınmış bölümünün hansı yollasa eşitdiyi, Batıdakı ulusal amacların yayğın olub özgürlük ideyalarının yayıldığı tarixi ana uyğunluğunu deyirlər.

Bu ideyalar özü ilə ulusal ayaqlanmalara qatılmış, Türkiyədə sığınacaq tapan bir sıra sığınmaçıları da özü ilə gətirirdi. Sonralar Jəlaləddin Mustafa paşa müsəlman adını almış polşalı sığınmaçı Konstantin Bocetski bu baxımdan dəyərli iz qoymuşdur.

Akçura bəy «Türkçülüyün tarixi»[1] adlı «Özət»ində onun «Les Turcs anciens et modernes» [Türklərin çağdaş tarixi] kitabının adını çəkir. Mustafa paşa bu kitabında Avropa ilə türk ellərinin bir irqdən olub, Qərb uyqarlığının «Turan-arilər»in ağlının yaratdığı ürün olduğunu deyən «Tauro-Ariennisma» baxışını gəlişdirir. Başqa sözlə Avropa uyqarlığının yaradıcısı eləcə də turanlılardır. Turanlıların bir bölümü islama keçib semit uyqarlığı ilə qovuşdu. Batı uyqarlığını alan türklər isə bununla elə bil keçmişlərini qaytarırlar.

Akçura bəy Jəlaləddin paşanın çox elmi olmasalar da onun açıqladığı sualla bağlı çox dəyərli baxışlar söylədiyini deyir. Bu kitabda ilkin olaraq türk ulusun böyüklüyü, gücü, onun dünya tarixindəki yeri, türk dilinin dolğunluğu, özgə sözlərsiz yaşaya biləcəyi, Asiya ilə Avropanın çox yerində yayılmış bu dilin dəyəri gözə çarpdırılmışdır. Kitabda imperiyanın xristian uluslarını türk ulusu ilə kültürlə, dillə bağlamağın gərəkliyi söylənmişdir.

---

[1]«Türk ili», s. 304.

Türk aydınlarının ulusal düşüncəsinin aydınlaşmasında genəlliklə, türkiyəlilərinsə özəlliklə Avropa, eləcə də rus doğuçu-türkoloqlarının o çağadək kökləşmiş baxışların tərsinə, **türklərin yeni soylarının anıtları ilə öyünməyə başladığı əski türk kültürünün olduğunu** deyən elmi tapıntılarının çox böyük etkisi olmuşdur.

German Vamberinin Orta Asiya gəzisi, Fon Le Koxun ideal tapıntısı, Leon Kaxonun türk ulusunun tarixindən danışan tanınmış kitabı, Vasili Radlovun türk dilləri sözlüyü, Vasili Bartoldun [Avropa, eləcə də Rusiyanın türk tarixi, türk dili, türk uyqarlığı ilə bağlı böyük işlər görmüş doğuçu alimləri] Türküstan tarixilə bağlı elmi araşdırmaları, eləcə də başqa doğuçu türkoloqların tapıntıları bu, ya başqa biçimdə türk aydınlarına çatır, onları duyğulandırırdı.

Türk ulusal özünüanlama düşüncəsinin başlıca dirəyi isə sözsüz, bu gün dünyanın qabaqcıl gerçəklərindən birinə çevrilmiş ulusal ideologiyanın elliklə gəlişməsi olmuşdur.

***

Rusiya İmperiyasının müsəlman uluslarının ulusal türk düşüncəsinin çoxdan, ilk türk dramaturqu, azərbaycanlı Mirzə Fətəli Axundzadənin 1850-ci ildə ölməz komediyalarını aydın el dilində yazması ilə başlandığına quşqu yoxdur.

1875-ci ildə Azərbaycanın başqa bir oğlu – Həsən bəy Zərdabi Bakıda «Əkinçi» qəzetini çap etdirir. İki il sonra isə ünlü İsmayıl bəy Qaspıralı Baxçasarayda (Krımda) ulus okullarının yenidən qurulmasını, oxutmanın doğma türk dilində olmasını amaclayan dəyərli «Tərcüman»ını yayımlamağa başlayır. O çağadək oxutma ərəb, ya da fars dilində idi.

Biz Balkan savaşı ilə dünya savaşı çağının türk ulusal

ideyasının gəlişməsinin ən üstün anı olduğunu demişdik.

**Bu çağda keçmiş Rusiya İmperiyasındakı müsəlmanlardan daha çox türklərin özünü anladıqları** doğrudur. Buna, bizə qarşı çıxanların sevə-sevə dediyi kimi, türk yayıcıları yox, tutucu ağalıqla sağ partiyaların tutumundan başqa rus toplumunun liberal kəsiminin başında duranların balkanlara gedən tibb bacılarına verdiyi **«yaralı bir slavyan döyüşçüsü olduqca, türk əskərinin yarasını sarıma»** kimi «slavyanofil göstərişlər» nədən olmuşdu.

Bax, bu yanaşma doğal olaraq keçmiş Rusiya İmperiyasının türk ellərində ulusal oyanışa nədən olub «Qızıl ay»a yardımlar topladır, türk oxuyanlarının qarşı çıxışlarına, yeniyetmələrin savaşan türk ordusuna könüllü getmələrinə nədən olurdu.

Bu durum, bu ovqat Türkiyə ilə Rusiyanın qarşı-qarşıya olduğu dünya savaşı çağında da dəyişməz qalmışdı.

***

Savaşların deyilən çağı türk ellərinin özünüanlama gerçəklərilə doludur. Türk uluslarının bütün görkəmli adamlarının qatıldığı, bütün türk aydınları içində geniş yayılmış ulusal türk ideyasının sevilən «Türk yurdu» curnalı bu çağda yayımlanmışdır. Bir ara doğrudan da yeni ideyanın alovlanan ocağı olub, yeniyetmələrin ürəyində türkçülüyün «qutsal alovunu» yandıran «Türk ocaqları» topluluğu da bu çağda yaradıldı. Bu savaş günlərində türklərin ulusalçı şairi Mehmet Emin bəyin kitabı da çox böyük uğurla yayımlandı.

Bundan başqa türkçülüyün ayrı-ayrı konularını gəlişdirən bir sıra publisistik əsərlər çap olundu: Yaqub Qədrinin, Orxan Seyfinin hekayələri, tanınmış türk yazıçısı Xalidə Ədibin

romanları «qurtulmuş Turan»ın ideal tiplərini, obrazlarını verirdi. Xalidə xanımın «Yeni Turan» romanı bunlardandır.

Yeni ideya axını təkcə şairlərlə yazıçıları yox, tanınmış araşdırmaçı alimlərimizi də özünə çəkdi. Türkologiyada tezliklə bütün Avropada tanınan Mehmet Fuad Köprülzadə irəli çıxdı.

Ziya Göyalp bəyə gəlincə isə onun təkcə yeni ideologiyanın publisisti, ədəbi yayıcısı kimi qalmayıb, yaratdığı yeni sosioloci okulla bütün axının ortasında işıq saçan ulduza çevrilməsi önəmlidir.

O, İstanbul Universitetinin kafedrasında Dürkheym [Fransız sosioloqu] ideyalarından dərs deməkdən başqa, Türkiyədə birinci olaraq yeni türkçülük elmini poetik çəkə, fəlsəfi düşünə, elmi açıqlamağa çalışan toplumsal-siyasi ideologiya yarada bildi. Onun bu yönlü əsərləri oxuyan yeniyetmələrin düşüncəsində, ovqatında silinməz izlər buraxdı. Ziya bəy bir ara, doğrudan da, Türkiyə toplumunun düşünən bölümünün düşüncəsinin ağası olmuşdu.

O, sonralar özünün bütün toplumsal-siyasi sistemini ölümqabağı yazdığı, yuxarıda adı keçən «Türkçülüyün əsasları» kitabında verdi.

«Türkçülüyün əsasları»ında ulusun toplumsal-siyasi, ədəbi-estetik, kültürəl-dini yaşamının bütün sorularına cavab verilmişdir. Aydın sistemləşdirilmiş bu cavablar ulusal-kültürəl, gəlişən demokratik düşüncəyə bütünlüklə uyğundur.

O çağda bu ideyalar bu ya başqa biçimdə Rusiya türklərinin toplumsal-ədəbi çevrələrində də gəlişirdi.

**Toplumsal ideologiyanın bütün sistemi o çağa kimi «müsəlman» adlandırılan türk basınındakı «müsəlman» anlayışını da «türk»ə dəyişməklə islamçılığın din**

**sistemindən türkçülüyün ulusal sisteminə keçirdi.**

1915-ci ildə, savaş çağında yayımlanan «Açıq söz»[1] ordu senzurasının törətdiyi çətinliklərə baxmayaraq, Rusiya müsəlmanlarını türk adlandırıb, bəlli bir türkçü, ulusal-demokratik ideologiya yaymağa çalışırdı.

Tezliklə bu ideologiya ilə o çağa kimi gizli işləyən **«Müsavat» partiyası ortaya çıxıb Rusiyanın ulusal-topraq bölgələrinə bölünməsi sorununu gündəliyə çıxarır, özəlliklə də Azərbaycanın bağımsızlığına çalışır, onun ideoloqları** bu amacı Rusiya sınırlarındakı başqa türk elləri üçün də istəyir. Bu baxış 1917-ci ilin mayında Moskvada toplanan «Rusiya Müsəlmanları Qurultayı»nda uğurla alqılanır.

Türkçülük ideologiyası o çağda Qazan, başqa deyimlə, Volqaboyu tatarları içində də yayılır, ulusal ideyaya şeirlər yazan şairlər, eləcə də Zəki Vələdi Toqan kimi tarixçilər ortaya çıxıb, yanılmıramsa, 1913-cü ildə [Vikipedi Özgür Ansiklopedidə 1911-ci il] özünün «Türklərin tarixi»ni çap etdirir.

***

Panislamizmdən qurtulan türk toplumsal-siyasi düşüncəsi indi çatdığı gerçək ulusal ideyaya o anda çatmadı.

Bu, psixoloci baxımdan aydındır. Elliklə savaş, qorxu çağında belə böyük islam birliyi çağırışından üz döndərən ulusalçılar onun yerinə düşüncələri onuntək etkiləyəcək çağırış qoymalı idilər. Bu, ancaq ulusal birlik ola bilərdi. «Din birliyi çağı keçdi, indi tarixi uluslar irəli aparır. Yaşasın, Dunaydan Altayadək türk uluslarının birliyi!»…Özü də tarix almanların birləşməsini bilirdi, Avstriya-Macarıstan, Osmanlı İmperiyası,

[1]«Açıq söz» Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə yayımlanırdı.

Rusiya kimi bütün qurama dövlətlər dağılmalı idilər. Türk elləri isə oyanıb ulusalca yaşamağa, özgürlüyə yönəldilər.

Bu baxışda idealla gerçək birləşirdi. Alman dövlətinə bənzər Turan dövlətinin yaradılması ilə «Türk ulusunun ünü ən yüksəyə çatar, onun içindəki böyük güc açılaraq dünyaya yeni uyqar dəyərlər verərdi».

Bu ideal türk ulüslarının yurddaşlarını sözsüz devrimçiləşdirirdi. Ancaq onlar ayrı-ayrılıqda qarşılarındakı yağıların çox böyük güclərinin qorxusundan özgürlükdən, bağımsızlıqdan söz belə açamazdılar. Bununla belə, onların kiçik ellər yox, ünlü tarixi, eləcə də gələcəyi olan çoxmilyonlu ulusun üyələri olmalarını anlamaları doğal olaraq umudlarını artırıb, yüzilin yağısı ilə dönmədən çatışmaya çağırırdı.

Gerçəkdə isə türk ulusunun aydınları bu ideala çatmağa çalışdıqca öz uluslarının tarixləri, sosial özəllikləri ilə yanaşı ulusal özgürlüyə onlardan qabaq çatmış ulusların yolunu da öyrənirdilər. Onlar bu öyrənmə ilə, eləcə də çağın etkilərindən, olaylarından siyasətdə, ideologiya alanında yavaş-yavaş, yuxarıda dediyimiz gerçək sonuclara çatdılar.

Türkçülüyü yaymağın gerçək dəyərini daha yaxşı anlamağınız üçün sizə bir türk paşasının bir türk əskərinə özünün müsəlman yox, türk olduğunu necə çətinliklə anlatdığını danışacağam.

– Sən hansı ulusdansan, Mehmet? – paşa yançısından sordu.

– Allaha şükür, müsəlmanam! – Mehmet cavab verdi.

– Ancaq islam – dindir, mən isə səndən hansı ulusdan olduğunu soruram.

– Mən müsəlmanam – əskər yenidən dedi.

Paşa ona ulusun dinlə yox, dillə bəlirləndiyini, Mehmetin

dilinin türk dili, özünün də türk olduğunu anlatmağa başladı.

Mehmetcik duruxdu.

– Hə, Mehmetcik duruxma, sən də mənim kimi türksən.

– Allah saxlasın, bu necə ola bilər, mənim paşam türk olsun!... – Mehmetcik gözlərini bərəldərək dilləndi.

20 il qabaq Rusiyanın yetərincə oxumuş «müsəlmanlarının» çoxu belə gülünc, acı durumda idi.

Ancaq indi «panturanizm»in etkisilə Sovet Rusiyasındakı müsəlmanlar, eləcə də «Osmanlılar» özlərini türk adlandırırlar.

V

# PANTURANİZMİN İKİ AXINI

Panturanizm axını böyüyüb siyasi düşüncənin bəlli sisteminə keçdikcə onda **özəkçilərin romantik, federalistlərin gerçəkçi axını kimi iki yol göründü.**

Birinci axının alman quramaçılarının ulusal baxışlarının bəlli etkisində olan öncülləri türk uluslarının qan qohumluğunu, dillərinin elliklə yaxınlığını, eləcə də din birliyini uyğun siyasi birləşdirmələrlə bir türk dövlətinin yaradılması üçün yetərli görürdülər.

Romantiklərin bu savaşçı-qat özəllikli, daha çox tutucu-avtoritar toplumsal-siyasi baxışı demokratik ovqatlı, liberal düşüncəli aydınlar arasında geniş yayılamazdı.

Gerçəkci axın isə türkçülüyün yüksək idealları ilə çoşsa da, ondakı ulusal özünüanlamanın gerçəklərini romantik arzulardan daha çox dəyərləndirirdi. Türk uluslarının ulusal kültür çıxarlarının ortaqlığını anlayan gerçəkçi axın onları ortaq bir dövlətdə birləşdirməyin olmayacağını anlayırdı. O, üncə ayrı-ayrı türk ellərinin bağımsız dövlətlər qurub özgürlüyə qovuşmasına çalışırdı.

Yeri gəlmişkən, kəsin bir siyasi proqrama dönməyən ilk axının Azərbaycan türkçülərini özünə çox da çəkmədiyini deməliyik. Orta çağ dərəbəyliyinin dağıntıları üzərində gəlişən demokratik quruluşlu Azərbaycan toplumuna bütünlüklə tərs bir axının uğur qazanmayacağı bütünlüklə aydın idi.

Doğrudan da Azərbaycan siyasətçiləri, daha çox da «Müsavat»ın başçıları gerçəkdən uzaq, ayağı altında yer olmayan romantik panturanizmə qarşı idilər. Tərsinə, **onların düşüncəsincə Qafqaz uluslarının konfederasiyası çağırışı Azərbaycanın, eləcə də bütün türk dünyasının gerçək istəklərinə daha uyğun idi.**

Azərbaycan siyasətçilərinin bu baxışını panturanizmin praktik siyasətdə gücsüz bir sıra «ortodoksal» yandaşları ələşdirirdi.

Buna Zarevand ağanın da kitabında dediyi, türk curnalisti Əliheydər Əmir bəyin «Vaxt» qəzetində «Müsavat»ın siyasətinə qarşı çıxması, ona verdiyimiz cavab yaxşı örnəkdir.

Biz ona Azərbaycanın bağımsızlığı çağırışının Türkiyənin çıxarlarına, türklərin kültür birliyinə tərs olmadığını, **Qafqaz Konfederasiyası ideyasının onun düşündüyü kimi, Türkiyənin yaxşı anladığımız çıxarlarına qarşı yönəlmədiyini** anlatmalı olduq.

Əliheydər çağdaş Türkiyədə siyasətin gedişini azacıq da etkiləyə bilməsələr də, romantikanın qorxuducu duyğularından keflənib, dörd yanlarındakı bütünlüklə başqa şey deyən gerçəkləri görmək istəməyən, ya da bacarmayan, öz duyğularına qapılmış sayca az, qızğın başlardan biri idi. Mən ona ancaq Türkiyə siyasətinin çıxarlarına qarşı yağı aktı kimi işıqlandırdığı, oxucularda çoxlu yanlış duyğular oyada biləcək Qafqaz Konfederasiyası ideyasını qorumaq istəyilə cavab vermişəm.

Ayrı-ayırı axınlardan uzaq olub bu çəkişməni anlayan oxucular dediklərimizi doğrulamaya bilməzlər. Qarşıçıxan Qafqaz – Azərbaycan siyasətimizə görə bizi türk birliyinin ya-

ğıları sırasına qatmağa qalxıb, Azərbaycanın qardaş ulusunun uğradığı ağrı-acıdan xoşlandığını da gizlətmirsə, burada daha nə söz ola bilər. Bu adam beləcə deyir: **«Azərbaycanda liberal, konservativ partiyalar yaransa da, Türkiyəyə birləşmək partiyası yaranmamışdır»**.

Əliheydərin sözlərinin çağdaş Türkiyədə də dəyərinin olmaması görkəmli türk curnalisti Məhyəddin bəyin atdığı atmacadan da görünür. Smirnə ayaqlanmasına baxan olanüstü məhkəmənin başçısı isə bir sıra suçlananlara onlara sevgilə qucaq açan Azərbaycana keçərək, qonşu, bağımsız bir dövlətin iç işlərinə sorumsuzluqla qarışdıqlarını demişdir.

***

Romantiklər panturanizmdən danışarkən çox ara onu klassik irq quraması – panalmanizmlə tutuşdururlar. Bu tutuşdurmadan necə olursa-olsun «Turan axını» ilə qorxuzmaq istəyən boşboğazlar da yapışırlar. Ancaq burada panalmanizmlə yox, panslavizmlə yanaşdırmaq düzgün olardı. Bəlli olduğu kimi, uzun illər çar Rusiyasının dış siyasətinin özül cizgisi olan panslavizm Rusiyada yox, Avstriya-Macarıstan monraxiyasının ağalığındakı slavyan ellərində yaranmışdır. Çexiya bu ideologiyanın beşiyidir. Panslavizmin Palatski, Şafarik kimi, eləcə də başqa böyük romantikləri bax, burada ortaya çıxmışlar. Bu, ilk çex panslavistlər dəstəsinin öncülləri böyük qardaş slavyan Rusiyasının ağrı-acı çəkən, bir parçası alman, başqası türk imperializminin ayaqları altında əzilən qardaşlarına yardıma gələcəyini, qurtulmuş slavyanların ikibaşlı rus qartalının başçılığında böyük slavyan imperiyası quracaqlarını düşünürdülər.

Bu ideologiya slavyan ellərini Avstriya-Macarıstan, eləcə də Osmanlı imperiyaları ilə çatışmağa umudlandırırdı. Onlar bu umudla içdən güc alırdılar. Bundan başqa rus slavyanofillərinin etkisi, eləcə də çarların dövlət siyasəti slavyan ellərinin bu umudunu artırırdı.

Panslavistlər özləri də panalmanist əzənlər adını qoyduqlarının öyrənənləri idilər. Onlar ideologiyalarının özəyini bütünlüklə onlardan alsalar da, gerçək sonucları başqa oldu. Panalmanizm Prussiyanın başçılığında bir alman imperiyasının yaranmasına gətirdi, slavyanların gələcəyi başqa oldu.

Ancaq çex romantiklərilə birgə yetənəkli çex gerçəkçiləri də yetişirdi. Onlardan Qavliçik kimiləri **«slavyan gerçəkliyinin ancaq ayrı-ayrı slavyan ellərinin gerçəklərinə dayandığını»** düşünürdülər. O, çexləri çalışmağa çağıraraq deyirdi: «Oturub, əllərimizi yanımıza salıb, Rusiyanın gəlib bizi qurtaracağını gözləmək asan işdir, ancaq ünsüzdür».

Qavliçik slavyan ideologiyasına çox yenilik gətirdi. O, **«böyük slavyan dövləti»** çağırışını, **«slavyan federasiyası»** ilə dəyişdi. Bu federasiya çağırışı sonralar çex demokratik ulusalçıların ideologiyasına çevrilib, slavyanofilliyə elə də sayğısı olmayan prezident Masarikin başçılığında bağımsız Çexoslovakiya Respublikasının yaranmasına gətirdi.

Panslavizmin Rusiyanın Polşanı üç yol bölməsinin qarşısını almadığını, özgürlüyündən dolayı Rusiyaya borclu olan Bolqarıstanın onunla savaşdığını deməyə dəyərmi?

Nə üçün, Almaniya birləşib dünya savaşının basqısına dözə bildi, slavyan elləri isə parçalandılar?... Bu ayrılıq nədəndir?

Bizə görə, Almaniyada kültür birliyi, iqtisadi gəlir-

çıxarlar, coğrafi bütövlüklə Prussiya özəyinin birləşdiriciliyi göz qabağında idi. Slavyanlarda bu koşullar yox idi. Tək soy birliyi isə bir dövlətin yaradılması üçün yetərli deyildi.

Panslavizm idealı gerçəkləşməsə də, slavyan ellərində özgür ulusal yaşam duyğusunun oyanmasında böyük gerçək olub, özgür slavyan dövlətlərinin yaranmasını etkilədi.

Panturanizmlə də belə oldu. **O da panalmanizmi yamsılamaqla başladı, ancaq gəlişdikcə panslavizm yolu ilə getdi, indi isə panslavizmin yetdiyi uğurlara çatır.**

## VI

# QAFQAZ KONFEDERASİYASI İDEYASI

Biz irəlidə Azərbaycanda panturanizmin ideoloji çıxarları ölkənin gerçəklərilə uzlaşdıran gerçəkçi axınının gəlişdiyini demişdik. Azərbaycan türkçülüyü federalist yolla irəliləyib azərbaycanlıları Çexiya örnəyində olduğu kimi, Azərbaycanın bağımsızlığı ideyasından başqa, Qafqaz Konfederasiyası yaratmağın gərəkliyi düşüncəsinə də gətirdi. Azərbaycan Türk Federalist «Müsavat» partiyası 1919-cu ildə toplanan ikinci qurultayında aşağıdakıları bəlirlədi:

«Müsavat» partiyasının ikinci qurultayı siyasi bölmənin Qafqaz Konfederasiyası ideyası ilə bağlı çıxışını çəkişib, ulusal, iqtisadi, siyasi gerçək çıxarlardan çıxış edərək, ancaq Qafqaz respublikalarının sıx birliyilə uluslararası birlikdə asanlıqla tanınıb siyasi, eləcə də topraq bütünlüklərinin güvənc altına alına biləcəyini anlayaraq: **Qafqaz respublikalarının özgür Qafqaz Konfederasiyasında birləşməsini gərəkli sayıb, Qafqazın bütün demokratiyasını, eləcə də qonşu respublikaların ağalıqlarını bu ideyanın gerçəkləşməsi üçün çalışmağa çağırır.**[1]

O ildə də Azərbaycan ağalığı Bakıda keçirilən erməni-Azərbaycan görüşündə Qafqaz respublikalarının konfederasiyada birləşməsi önərgəsini irəli sürdü. Azərbaycanın sunduğu, ermənilərin geri qaytardığı önərgə 1920-ci ildə Gürcüstanla Azərbaycan arasında savaş-qorunma anlaşmasının

[1]«Azərbaycan» qəzeti, Bakı, 14 dekabr 1919, № 271.

bağlanması ilə sonuclandı. Ermənistan da istəyəndə bu birliyə girə bilərdi. O günlərdə Azərbaycan basınında Qafqazın gömrük, eləcə də dəmir yol sorunu çəkişilirdi.

Təkcə ağalıqdakı «Müsavat» partiyasının öncülləri yox, Azərbaycan siyasi düşüncəsinin bütün axınları, görkəmli siyasi öncüllər Azərbaycan Respublikası yaradılandan **Qafqaz ellərinin bir konfederativ dövlətdə birləşməsinin gərəkliyini deyirdilər.**

Bundan ölkənin sorumlu öncüllərinin çıxışlarında danışılır, çağırış parlament kürsüsündən səslənir, yuxarıda deyildiyi kimi, partiya qurultaylarında bəlirlənirdi.

Bizim sığınmaçı basında Qafqaz Konfederasiyasından bütün illərdə danışılmış, indi də danışılır. Azərbaycan özgürlükçülərinin İstanbulda yayımlanan «Odlu yurd» curnalı bu sorundan yaxşı anlamda danışmağı yaddan çıxarmır.

Azərbaycanın siyasi öncülləri bu düşüncəni boş yerə qızğınlıqla savunmurlar. Qafqaz keçidinin siyasi, iqtisadi koşulları bütünlüklə bu siyasi yolun gərəkliyini deyir.

Qafqaz keçmişdə qonşu ellərin çatışma yeri olmuşdur. Birgəyaşayışın son dönəmində bu bölgənin çəkdikləri də **bir sıra Qafqaz ellərinin separat davranışlarının təkcə onlara yox, bütün uluslara ağrı-acı gətirdiyini** aydın göstərdi.

Tarix ortaqlığı, ağrı-acıların birliyi, daha doğrusu olmuş-olacaq birliyi Qafqazın bütün uluslarında ortaq, az-çox yaxın psixologiya yaratmışdır. Terrorun, qırmızı imperializmin bütün ulusları qanlı, ağır daş altında sıxdığı illər bu ulusları daha yaxınlaşdırıb onlarda **ulusal-siyasi çıxarların birliyi düşüncəsini yaratdı**.

Qafqazdan gələn bilgilər Qafqaz uluslarının siyasi düşünən qatlarının elliklə bu ovqatda olduğunu deyir. Bu ovqat bu gün

Qafqazın siyasi sığınmaçıları arasında olan siyasi tutuma, başqa sözlə Qafqaz birliyinə bütünlüklə uyğun gəlir.

Bağımsız Qafqaz təkcə onun uluslarının xoşbəxtlik girovu yox, eləcə də uluslararası önəmli gerçəkdir. Quzeyin sürəkli qorxusu altında olan **doğulu qonşularımız ancaq özgür konfederativ Qafqaz bufer dövlətnin olması ilə gələcəklərindən arxayın ola bilərlər!** Qafqaz dövləti yaratmaq yolunda gerçək işlərimizin doğulu qonşularımızda bizə, bizim işlərimizə sayğı yaradacağına quşqu yoxdur.

Bağımsız  Qafqaz siyasi, eləcə də iqtisadi gücü ilə uluslararası dünya siyasəti üçün də önəmli dəyər qazanardı.

## VII

# ÇIXARIŞLAR, ÖZƏTLƏR

Deyilənlərdən aşağıdakılar çıxır:

Türk ellərini devrimçiləşdirib onları ulusal özünüanlamağa, özgürlüyünü doğrulamağa diricəsinə yönəltmiş panturanizm ideologiyası obyektiv olaraq **qabaqcıl ideya olub, bütün kəskinliyilə Rusiya imperializminə, bəlli «bütöv, bölünməz Rusiya» ideyasına qarşı yönəlmişdir.**

Panturanizm yaranışının başlanğıcında irqi qurama yolu ilə gedirdi. Ancaq obyektiv tarix nədənlərindən gücü ilə onun ən tanınmış başçıları da elin ulusa keçməsinin təkcə irq birliyilə ola bilməyəcəyi, bir irqi materialdan ayrı-ayrı ulusların yarana biləcəyi düşüncəsinə çatdılar.

Biz, olayların gedişi, ağıllardakı gəlişmə ilə bu gün gerçəklərə dayanaraq deyirik: **Daha, romantik, siyasi panturanizm yoxdur, ancaq ulus istəklərini güdən gerçək türkçülük vardır**!

Ən gərəkli çıxarışlardan, çox önəmli gerçəklərdən biri kimi aşağıdakını demək olar: **Türk ellərinin özünüanlaması irq ideologiyasından ulus ideologiyasına keçir, bu da saldırıcılığı ideoloji qurama baxımından da aradan qaldırır.**

Düşüncənin bu gəlişməsi türk ölkələrinin çağdaş siyasi-iqtisadi durumuna bütünlüklə uyğundur. Yeni Türkiyə Respublikasının böyük başçısının göstərdiyi dış siyasət də ölkənin sosial-iqtisadi durumuna bütünlüklə uyğundur. O,

ürətdiklərini satmaq üçün əlaltı ölkələri olmalı gəlişmiş sənaye ölkəsi, ya da yaşayanları çox olduğundan topraq tutmaq istəyən ölkə deyildir, tərsinə, o, Anadolunun boş çöllərini əkmək üçün köçənləri çağırma siyasəti yürüdür. Buna görə Mustafa Kamal paşa «Ac, yoxsul Anadolunun başqalarına verəcəyi bir quruşu belə yoxudur!», – deyərkən min yol düzgün deyir.

İşlər belədirsə, Türkiyənin saldırıcı siyasətindən danışmaq olmaz!

**Deməli, «Yeni Moğol saldırısı» fantastik düşüncə nağılıdır.** Gerçəkdə belə qorxu yoxdur. Bunu Kerenskinin başçılıq etdiyi, necə deyərlər, rus demokratiyası da çox yaxşı bilir. Ancaq o, bizə bəlli olan nədənlərlə, bilə-bilə boyaları qatılaşdırıb, azğın boşboğazlıq yayır.

Moğol saldırısının olmayacağı onlara yaxşı bəllidir. Onlar çağımızda imperiyaların yaranmadığını, tərsinə, dağıldığını da bilirlər. Onları Kamalın belə deyək, guya Qazanı qurtarmağa gedən polkları yox, çox bacarıqlı siyasətçilərlə sübayların bütün bicliklərinə baxmayaraq, əlindəki, ulusal özünü anlamış, özgürlüyə can atan ulusların basqısı ilə dağılan Avstriya-Macarıstan İmperiyasının örnəyi qorxuzur. Bu yürüşün də panslavizm ideyasından ilhamlandığı bəllidir!...

Bu gün bağımsız olan o slavyan elləri kimi Azərbaycan ulusu da bir çağ panturanizmin devrimçi ideyalarından ilhamlanaraq ulusal varlığını qorumaq ideyasına çatıb **bağımsız Qafqaz Konfederasiyası siyasi birliyindən qıraqda qurtuluşunun olmadığını** anladı.

Bu ideya Gürcüstanla Azərbaycanın yuxarıda deyilən ordu-savunma anlaşması ilə bir az gerçəkləşdi. Çıxışımın sürəsi onu bütünlüklə uyğulaya bilməməyimizin çoxlu nədənlərindən danışmağa qoymur. Təkcə bunu deyirik: bu ideyanı

gerçəkləşdirməyə qoymayan nədənlərdən biri indi də Xondkaryan ağa ilə **K-$^{0}$**-nun dililə Qafqaz ellərinin birləşməsini pozmağa çalışılan qarayaxma, boşboğazlıq idi.

***

Biz, gerçəklərə dayanaraq indiki durumunda **türkçülüyün Qafqaza heç bir qorxu törətmədiyini**, tərsinə, rus imperalizminə qarşı yönələn ideya kimi **onunla bir** olduğunu gördük.

Ancaq bizim üçün «panturanizm sorunu»nun qorxulu çözüm yolu vardır. Mən, Mandelştam ağanın planını deyirəm.

Onun «Turan topraqlarının Rusiyadan biryönlü ayrılması»nı heç cür alqılamayan düşüncəsinə görə bütün türk elləri özərklik alıb **«Böyük Rusiya Federasiyası»**nın iç quruluşu kimi Rusiya sınırlarında qalırlar. Bura istəsə Türkiyə, gələcəkdə İran belə qatıla bilər.

Böyük rus dövlətçiliyinin aşırı qanadının türk ellərinin özərkliyindən danışması özlüyündə çox yaxşı gerçəkdir. Burada bizim tutduğumuz ideyanın gücü görünür. Bu, çağın insanları ağıllarını işlətməyə zorlayan ruhudur.

Mandelştamın önərdiyi sorunu çözüm yolu rus siyasi düşüncəsində çox yayılmış uydurmalardandır. Ancaq sorun böyük dövlətçilərin **yumaqla aparamadıqlarını sürüşdürməklə silmək** kimi yeni fantaziyası ilə çözüləməz!

Biz, Rusiya ağalığındakı uluslar rus siyasi düşüncəsinin belə aldadıcı ürünlərindən çox çəkmişik. Heç bir yalançı, liberal söz Rusiya imperialistlərinin ata-babalarının zorla tutduqları topraqlardan çəkilmələri bir yana, tərsinə, bu ya başqa yolla daha yenilərini ələ keçirmək istədiklərini görən gözlərimizi bağlayamaz!...

Hə, ağalar, Kamalın gerçəkdə olmayan «pantürkizmin-

dən», «Müsavat» partiyasından qorxmaq yox, tərsinə, Mandelştam, Kerenski kimi ağaların «panrusizm»indən qorunmaq gərəkdir!...

Rus imperializmilə çarpışan Qafqaz, Ukrayna, Türküstan ellərini, başqa əzilmiş ulusları heç nəyə dayanmayan çəkindirmə çabaları bizi qorxuzmur, aramıza çəkindirmə, ayrılıq salmaq istəyən yağıların azğın boşboğazlığına baxmayaraq, uluslarımızın bir yol bəlirlənmiş özgürlük amacına doğru dostyana, düzgün addımlarla gedək!

**Rusiya asılılığında olan bütün uluslar, özəlliklə də biz, Qafqaz ulusları bir yağıya – bu gerçək qorxuya qarşı bir bayraq altında birləşməlidirlər!...**

Paris, aprel 1930-cu il.

## YADİGAR TÜRKEL



1951-ci il aprelin 28-də Biləsuvar rayonunun Bəydili kəndində doğulub.

1969-76-cı illərdə Nəriman Nərimanov adına ADTİ-də oxuyub.

1993-cü ildə «Ekoloji mədəniyyətin formalaşmasının sosial-fəlsəfi və tibbi aspektləri»ndən namizədlik, 2005-ci ildə «İnsan, təbiət, cəmiyət münasibətləri (Biososial və fəlsəfi aspektlər)» konusuda doktorluq dissertasiyası müdafiə edib.

1999-cu ildən AMEA Milli Münasibətlər İnstitutunda, 2003-cü ildən Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun politologiya şöbəsində işləyir, aparıcı elmi işçidir.

«İnsan, təbiət, cəmiyət», «Biləsuvar», «Dünyanın mahiyəti və dərki haqqında», «İnsan, təbiət, cəmiyət münasibətləri (Biososial və fəlsəfi aspektlər», «Yazışma və kargüzarlıq» (1997, 1999, 2007), «Demokratik cəmiyətin milli-mənəvi problemləri», «Politologiya (açıqlamalarla sözlük)», «Politlogiya (açıqlamalarla sözlük, ya da milli kimlik dərsləri)», «Nizami Gəncəvinin siyasi və dini-ideoloji baxışları», eləcə də başqa kitablar yazmışdır. Respublika basınında toplumun sosial-siyasi sorunlarından yüzdən çox elmi-publisistik yazı çap etdirmişdir.

Məhəmməd Əmin Rəsulzadənin «Azərbaycan şairi Nizami» (2008), «Milli birlik» (2009), «Azərbaycan şairi Nizami» (Bitkin çapı, 2011), «Qafqaz türkləri» (2012), kitablarının işləyib çap etmişdir.

# İÇİNDƏKİLƏR

Məhəmməd Əmin Rəsulzadə .................................................. 3

2012-ci il çapına ön söz ......................................................... 6

«Qafqaz» Yayım Evindən [2007] .......................................... 10

Yayım Evindən ....................................................................... 11

Ön söz ..................................................................................... 12

Rusiyanın qulluğunda ........................................................... 15

Nə peyindir, nə də material .................................................. 23

Panturanizm. Qafqaz sorunu .................................................. 29

**Komputer bəzəkçisi**: Fariz Məhərrəmov

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Çapa imzalanmışdır: 30.10.2012.
Formatı: 60x84 1/16 Həcmi: 4 ç.v.
Sifariş 51. Tiraj 300.
«**Təknur**» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~~

Mətbəə kitabın məzmununa görə
heç bir cavabdehlik daşımır!

~~~~~~~~~~~~~~~~~~~~~~~~

**Ünvan**: Bakı ş., H.Cavid pr., 31
**Telefon**: 408-86-23